## "Z" və "V" simvolları olmaz!

### Ukraynada Rusiya hərbi rəmzləri qadağan olunub



**Ukrayna parlamenti Rusiya ordusunun istifadə etdiyi rəmzlərə qadağa qoyan qanun layihəsini ikinci oxunuşda təsdiq edib.**

"Report" xəbər verir ki, bu barədə millət vəkili Yaroslav Jelezniak teleqram kanalında bildirib.

Həmin qanun Rusiyanın mövcud rejimini və Ukraynada apardığı müharibəni təbliğ edən hər cür məlumatlara qadağa qoyur.

Qanunda Rusiya ordusunun istifadə etdiyi "Z" və "V" simvolları, onları kiril əlifbasında əks etdirən hərflər qadağan olunub.



## Din xadimi olmaq istəyənlər imtahan verəcək

**Din xadimləri üçün Attestasiya Komissiyası yaradılacaq.**

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib.

(səh.2)

❒ № 65 (5587), 2022-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 aprel 2022-ci il (cümə)



## Azərbaycana giriş üçün PCR test tələbi ləğv edildi

### Bakı-Naxçıvan avtobuslarının sərnişinlərindən də sənəd tələb olunmayacaq

**Azərbaycana giriş üçün COVID-19-a dair PCR testinin təqdim etmək tələbi ləğv olunub.**

Nazirlər Kabinetinin 14 aprel 2022-ci il tarixli qərarına əsasən 2022-ci il aprelin 15-dən etibarən:

- Azərbaycan Respublikasına giriş üçün COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədi təqdim etmək tələbi ləğv edilir;

- Ölkədaxili uçuşlar zamanı sərnişinlərdən COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur.

Aprelin 15-dən etibarən Bakı-Naxçıvan-Bakı müntəzəm avtobus marşrutunun İran İslam Respublikasının ərazisindən keçməklə avtobus marşrutu ilə hərəkət edən sərnişinlərdən də COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur.



## "Albaniya hər zaman Azərbaycanın tarixi hüquqlarını dəstəkləyir"

### Prezident İlham Əliyevin Albaniyanın Baş naziri ilə təkbətək görüşü olub

**Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.**

Prezident İlham Əliyev Baş nazir Edi Ramanı qarşıladı.

Sonra birgə foto çəkdirildi.

**Albaniyanın Baş nazirini salamlayan Prezident İlham Əliyev dedi:**

- Cənab Baş nazir, Azərbaycana xoş gəlmisiniz, sizi Azərbaycanda görməyimə çox şadam. Bu, bir-birimizi görmək və gündəliyimizdə duran bir çox vacib məsələləri müzakirə etmək üçün olduqca yaxşı fürsətdir...

(səh.2)

## Rusiyalı həmsədrə vəzifə tapşırıldı

### İqor Xovayev Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına yardım üzrə xüsusi nümayəndə təyin olunub



**ATƏT-in Minsk Qrupunun Rusiyadan olan həmsədri İqor Xovayev Rusiya xarici işlər nazirinin Azərbaycan və Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi təyin olunub.**

Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

"Rusiya İrəvan və Bakı arasında sülh müqaviləsinin bağlanmasına töhfə vermək əzmindədir. Bunun üçün xüsusi tapşırıqlar üzrə səfir İqor Xovayev yeni vəzifədə - Rusiya Xarici İşlər Nazirinin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına yardım üzrə xüsusi nümayəndəsi kimi fəaliyyətini davam etdirəcək", deyə Zaxarova vurğulayıb.

# ABŞ Dövlət Departamenti erməniləri ifşa etdi

### Qarabağda onlarla azərbaycanlı qəbiristanlığı erməni separatçıları tərəfindən dağıdılıb




**ABŞ Dövlət Departamentinin rəsmi saytında 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatda Ermənistan sərt tənqid olunub.**

Hesabatın Ermənistana aid hissəsində ermənilərin azərbaycanlı əsirlərə qarşı zorakılıqları, qətllərinə xüsusi yer ayrılıb.

Qeyd olunub ki, 2020-ci il İkinci Qarabağ müharibəsi zamanı əsir düşən azəbaycanlı hərbi əsirlər işgəncəyə, ləyaqəti alçaldan rəftara məruz qalıblar. Dövlət Departamentinin hesabatında Azərbaycan Baş Prokurorluğunun Kəlbəcər rayonunun Başlıbel kəndində başlatdığı cinayət işinə də toxunulub. Bildirilib ki, 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən öldürüldüyü iddia edilən azərbaycanlılara aid məzarların axtarışına başlanılıb.

(səh.3)

# Müharibə olmasaydı, olmazdı

### İndi Paşinyan Qarabağı Azərbaycanın ərazisi kimi tanımağa hazırdır



**Azərbaycan və Ermənistan arasında 1988-ci ildə başlanmış münaqişədən sonra sülhə ən yaxın vəziyyət yaranıb.**

"Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır". Baş nazir həmçinin bildirib ki, İrəvan və Bakı aprelin 30-dək sərhədin delimitasiyası komissiyasının üzvlərini təyin etməlidir. O əlavə edib ki, Ermənistanın Azərbaycana qarşı heç vaxt ərazi iddiası olmayıb və Qarabağ məsələsi ərazi məsələsi deyil, hüquq məsələsidir. Paşinyanın sözlərinə görə, Qarabağ ermənilərinin təhlükəsizliyinə təminat verilməsi, onların hüquq və azadlıqlarının təmin edilməsi Ermənistan üçün prinsipial əhəmiyyət kəsb edir.

(səh.4)



## 1 AZN metaldan olacaq

### Yumşaq məzənnə siyasətinə keçməyin zamanıdır

**Jurnalist, iqtisadçı-ekspert Razi Abasbəyli öz feysbuk hesabında manatın görkəminin dəyişəcəyi barədə yazıb.**

"Manatın görkəmi dəyişəcək. Dəyəri ilə bağlı rasional islahat aparılacaq. Dəyər qazanacaq, dəyər itirəcək, bəlli deyil. Amma 1 AZN metaldan olacaq böyük ehtimal"- deyə bildirib.

Mövzu ilə bağlı "Şərq"ə daha əhatəli şərh verən Razi Abasbəyli bildirib ki, baş verən Rusiya-Ukrayna müharibəsindən dolayı iqtisadi problemlər dünyanın tenderində çox ciddi qırılmalara və gərginliyə gətirib çıxarıb...

(səh.4)

## Koronavirusa cəmi 15 nəfər yoluxub

### Daha 1 nəfər vəfat edib, 24 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 15 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 792 320 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 782 440 nəfər müalicə olunaraq sağalıb, 9 705 nəfər vəfat edib, aktiv xəstə sayı 175 nəfərdir.

## Bakıda 4 ədəd əl qumbarası tapılıb



**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Xəzər rayonunun Şüvəlan qəsəbəsində sursat aşkar edilməsi barədə məlumat daxil olub.**

Fövqəladə Hallar Nazirliyindən "Şərq"ə verilən məlumata görə, hadisə yerinə dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin (XRXX) minalardan təmizləmə üzrə çevik qrupu cəlb edilib.

Hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra hadisə yerinə baxış zamanı aşkar edilmiş sursatların döyüş tətbiqinə yararlı 4 ədəd F-1 əl qumbarası olduğu müəyyən edilib. Sursatlar XRXX-nin çevik qrupunun mütəxəssisləri tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb. Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.

## "Cənubi Qafqazdakı real vəziyyət danışıqlarda fasiləyə imkan vermir"

### Zaxarova: "Rusiya Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yardım etməkdə qətiyyətlidir"

(səh.2)



## Soyuq müharibə dövrü qayıdır

### Ekspertlərin narahatçılığı əsassız deyil

(səh.3)



# "Albaniya hər zaman Azərbaycanın tarixi hüquqlarını dəstəkləyir"



## Prezident İlham Əliyevin Albaniyanın Baş naziri ilə təkbətək görüşü olub

**Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.**

Prezident İlham Əliyev Baş nazir Edi Ramanı qarşıladı.

Sonra birgə foto çəkdirildi.

**Albaniyanın Baş nazirini salamlayan Prezident İlham Əliyev dedi:**

- Cənab Baş nazir, Azərbaycana xoş gəlmisiniz, sizi Azərbaycanda görməyimə çox şadam. Bu, bir-birimizi görmək və gündəliyimizdə duran bir çox vacib məsələləri müzakirə etmək üçün olduqca yaxşı fürsətdir. Sizin səfəriniz ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyəsini bir daha nümayiş etdirir. Biz dəfələrlə görüşmüşük, bir çox hallarda telefon əlaqəsi yaradırıq. Eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində də bir-birimizi görmək imkanından hər zaman istifadə edirik.

Əminəm ki, bu səfər ikitərəfli əlaqələrimizə yeni təkan verəcəkdir. Biz regional inkişaf və dünyanın gündəliyində olan başlıca məsələləri müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə gəldikdə, mən məlumatla tanış oldum və əlbəttə ki, biz ticarət dövriyyəmizin artırılması üzərində çalışmalıyıq. Rəqəm olduqca kiçikdir, lakin hesab edirəm ki, burada artım potensialı var və biz bunu bu gün müzakirə edəcəyik.

Əlbəttə, enerji sektorunda əməkdaşlığımız haqqında da danışacağıq. Bir ildən artıq müddətdir ki, Azərbaycan Avropaya təbii qazın ixracatçısına çevrilib və Albaniya hər zaman bu təşəbbüsü dəstəkləyib. Ölkənizin yüksək səviyyəli nümayəndələri Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclaslarında hər zaman iştirak ediblər və həmin layihənin icrasına öz böyük töhfələrini veriblər. Yəni, biz bu tarixi layihəni icra etmiş ölkələrdən ibarət olan komandadayıq. Hesab edirəm ki, bu gün Cənub Qaz Dəhlizi və xüsusilə də Trans-Adriatik boru kəmərinin əhəmiyyəti daha qabarıq görünür.

Bu, əməkdaşlığımızın ən yaxşı sahələrindəndir ki, burada böyük artım potensialı var. Bizim nümayəndələrimiz enerji əməkdaşlığımız ilə bağlı daha geniş portfelə malik olmaq istiqamətində görüşlər keçirirlər. Buraya təbii qaz, tranzit, təchizat, elektrik enerjisi daxildir və bu, həqiqətən də bizim ikitərəfli gündəliyimizin əhəmiyyətli hissəsini təşkil edə bilər. Əminəm ki, hazırda danışıqlar mövzusu olan məsələlər yeni inkişafla nəticələnəcək.

Hesab edirəm ki, biz, həmçinin qarşılıqlı sərmayə qoyuluşu imkanlarını müzakirə edə bilərik. Biz vətəndaşlarımıza turizm sahəsində müxtəlif imkanlar yarada bilərik. Ümumilikdə isə bu görüş tərəfdaşlığımıza daha geniş mənada nəzər salmaq və gələcəkdə yaxşı nəticələr əldə etmək baxımından təkan vermək üçün yaxşı fürsətdir.

Sizi görməyimə şadam. Bir daha xoş gəlmisiniz.

***

**Baş nazir Edi Rama dedi:**

-Təşəkkür edirəm cənab Prezident. İlk növbədə, uzun illərdən sonra vəziyyətin dözülməz həddə çatması nəticəsində ölkənizin ərazisinin bir hissəsini uğurla geri qaytardığınız dövrdə burada olmağımdan çox məmnunam. Bildiyiniz kimi, Albaniya ATƏT-in sədri və hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi hər zaman Azərbaycanı, həqiqəti və ölkənizin tarixi hüquqlarını dəstəkləyir və bunu etməyə davam edəcək. Biz Sizin qonşunuz Ermənistanla sülhə və uzunmüddətli əməkdaşlığa yönəlmiş olduqca nümunəvi səylərinizi alqışlayırıq.

Eyni zamanda, xoşbəxtlikdən Türkiyə kimi dövlətin simasında güclü körpüyə malikik. Qəti şəkildə inanıram ki, Sizin də qeyd etdiyiniz kimi, biz daha çox işlər görə bilərik. Əlbəttə, əməkdaşlığımızın artırılması potensialına malik sahələr var və mən bununla bağlı Sizin fikirlərinizi öyrənmək, habelə perspektivləri müzakirə etmək arzusundayam. Bundan əlavə, heyətlərimiz müzakirələr aparır və görək, istər enerji, istərsə də turizm sahəsində hansı nəticələr əldə olunacaq.

COVID artıq bir növ sakitləşib və ümid edirəm ki, Siz Albaniyaya səfərə gələcəksiniz.

Cənab Prezident, gözəl paytaxtınıza ilk qədəmlərimizdən bizə göstərilən bu yüksək qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

*Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə işçi naharı olub.*

**Builki Həcc ziyarəti ilə bağlı hələki Səudiyyə Ərəbistanından Azərbaycana rəsmi məktub daxil olmayıb.**

**Bunu Trend-ə Qafqaz Müsəlmanları İdarəsinin Xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri deyib.**



# Səudiyyə Ərəbistanından rəsmi məktub daxil olmayıb

## Azərbaycandan Həcc ziyarətinin olub-olmayacağı dəqiq deyil

O qeyd edib ki, rəsmi məktub olmadığı üçün Azərbaycandan Həcc ziyarətinin olub-olmayacağı ilə bağlı fikir bildirmək çətindir. ”Rəsmi məktubu gözləyirik. Rəsmi məktub gəldikdən sonra ictimaiyyətə məlumat veriləcək və Həcc ziyarəti ilə bağlı sənəd qəbuluna başlanılacaq”, - deyə V.Cahangiri əlavə edib.

*Qeyd edək ki, Səudiyyə Ərəbistanı Həcc ziyarəti üçün icazə verilən illik say limitini krallıq vətəndaşları və əcnəbilər də daxil olmaqla 1 milyon nəfərə qədər artırıb.*

*Məlumata əsasən, Məkkəyə həcc və ümrə ziyarətinə yaşı 65-dən az olan, tam peyvənd olunan şəxslər buraxılacaq. Zəvvarlar koronavirusla bağlı testin neqativ nəticəsini təqdim etməli olacaqlar.*

# Din xadimi olmaq istəyənlər imtahan verəcək



**Din xadimləri üçün Attestasiya Komissiyası yaradılacaq.**

**Bunu ”Report”a müsahibəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib.**

Onun sözlərinə görə, din xadimlərini həmin komissiya attestasiya edəcək: ”İstər din xadimi olmaq istəyənlərin, istərsə də attestasiyada iştirak edənlərin din, dil, qanunvericilik bilikləri, dünyagörüşləri və peşə bacarıqları yoxlanılacaq. Bunun üçün imtahan-müsahibə və attestasiya proqramları əvvəlcədən hazırlanacaq və rəsmi qaydada təsdiqlənəcək”.

Sədr müavini Attestasiya Komissiyasında kimlərin təmsil olunacağı məsələsinə də aydınlıq gətirib. O qeyd edib ki, qanuna əsasən, Attestasiyanı Dövlət Komitəsi keçirir, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri və mütəxəssislər bu prosesdə iştirak edirlər: ”Əslində din xadimlərinin attestasiyası yeni məsələ deyil. İndiyədək bu işi Qafqaz Müsəlmanları İdarəsi həyata keçirib və bu sahədə onların təcrübəsi var, biz də bu təcrübədən istifadə edəcəyik”.



# "Cənubi Qafqazdakı real vəziyyət danışıqlarda fasiləyə imkan vermir"

## Zaxarova: “Rusiya Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yardım etməkdə qətiyyətlidir”

**Bu il fevralın 24-də Vaşinqton və Paris ATƏT-in Minsk Qrupunun həmsədrlərinin ”üçlüyü” çərçivəsində Moskva ilə bütün təmasları dayandırıb.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

Onun sözlərinə görə, Cənubi Qafqazdakı real vəziyyət danışıqlarda fasiləyə imkan vermir: ”Birləşmiş Ştatlar və Fransa həmsədr kimi əməkdaşlığı dayandırdıqlarına görə regionda uzunmüddətli sülh və sabitliyin bərpası üçün əlavə ardıcıl addımlar tələb olunur.

Bununla əlaqədar olaraq, xüsusi tapşırıqlar üzrə səfir İqor Xovayev *(Minsk Qrupunun Rusiyadan olan həmsədri-red APA)* öz işini yeni vəzifədə, yəni Rusiya Federasiyası Xarici İşlər Nazirinin Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşmasına yardım üzrə xüsusi nümayəndəsi kimi davam etdirəcək. Onun diqqət mərkəzində Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin hazırlanması olacaq. Biz Bakı və İrəvandakı müttəfiqlərimiz və tərəfdaşlarımızdan İqor Xovayevin səylərinə dəstək vermələrini ümid edirik. Biz digər maraqlı oyunçularla konstruktiv qarşılıqlı əməkdalığa açığıq”, deyə Rusiya XİN rəsmi nümayəndəsi vurğulayıb.

**Mariya Zaxarova bildirib ki, Rusiya Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yardım etməkdə qərarlıdır.**

”Daha əvvəl qeyd etdiyimiz kimi, Bakının təklif etdiyi ”Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin qurulmasının əsas prinsipləri” və İrəvanın onlara reaksiyası sülh müqaviləsi üzrə Azərbaycan-Ermənistan danışıqlarının başlanması üçün əsas olduğuna dəlalət edir. Bu mövzu bu il aprelin 9-da Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışıqlarında, eləcə də bir gün əvvəl Sergey Lavrovun Moskvada erməni həmkarı Ararat Mirzoyan ilə danışıqlarda və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla telefon danışığında müzakirə olunub. Rusiya Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yardım etməkdə qərarlıdır”, - deyə Zaxarova vurğulayıb.

# Rusiya hərbçiləri Ukraynanın Oleşki şəhərini ələ keçiriblər

## Bu barədə Oleşki şəhərinin meri Yevgeni Rişçuk xəbər verib



**Rusiya qoşunu Ukraynanın Xerson şəhərinə gedən yolun keçdiyi Oleşki şəhərinə daxil olublar.**

”Report”un məlumatına görə, bu barədə Oleşki şəhərinij meri Yevgeni Rişçuk xəbər verib.

O, qeyd edib ki, düşmən hərbçiləri yerli administrasiyanın binasında artıq Rusiyanın bayrağını asıblar.

Rişçuk şəhər sakinlərini küçəyə çıxmamağa çağırıb, çünki orada Rusiya patrulları olacaq.

”Bizim küçələrdə patrul xidməti ilə bağlı sualımız var. Yerli patrullar ruslarla əməkdaşlıq etməyəcək. Yəni ruslar özləri küçələrdə patrul edəcəklər”, - o deyib.

Eyni zamanda, Rişçukun sözlərinə görə, o, belə bir fürsət olduğu müddətdə şəhərdə müəyyən proseslərə nəzarəti davam etdirəcək. Kommunal xidmətlər fəaliyyətini davam etdirəcək.



# Bayden Ukraynaya səfər etməyə hazırdır

**ABŞ Prezidenti Cozef Bayden Ukraynaya səfər etməyə hazır olduğunu bildirib.**

Bu barədə ”Report” xarici mətbuata istinadən xəbər verir.

Merilend ştatında prezident təyyarəsinə minməzdən əvvəl Ağ Evin sahibi jurnalistlərlə ayaq üstə ənənəvi qısa söhbət edib və dialoq zamanı Baydendən administrasiya üzvlərindən birini Kiyevə göndərməyə hazır olub-olmadığı soruşulub.

Bayden cavab olaraq bildirib ki, bu məsələ ilə bağlı hələ qərar verilməyib. Lakin onda ABŞ Prezidentindən bu rola kimin müraciət edə biləcəyinə aydınlıq gətirməsi istənilib. ABŞ-ın yüksək rütbəli məmurlarının Ukraynaya mümkün səfəri ilə bağlı sualı cavablandıran Bayden bununla bağlı qərarın verildiyini bildirib.

# ABŞ Dövlət Departamenti erməniləri ifşa etdi

## Qarabağda onlarla azərbaycanlı qəbiristanlığı erməni separatçıları tərəfindən dağıdılıb




## “Ermənistan silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin sayı daha çoxdur”

**ABŞ Dövlət Departamentinin rəsmi saytında 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatda Ermənistan sərt tənqid olunub. Hesabatın Ermənistana aid hissəsində ermənilərin azərbaycanlı əsirlərə qarşı zorakılıqları, qətllərinə xüsusi yer ayrılıb.**

Qeyd olunub ki, 2020-ci il İkinci Qarabağ müharibəsi zamanı əsir düşən azəbaycanlı hərbi əsirlər işgəncəyə, ləyaqəti alçaldan rəftara məruz qalıblar. Dövlət Departamentinin hesabatında Azərbaycan Baş Prokurorluğunun Kəlbəcər rayonunun Başlıbel kəndində başlatdığı cinayət işinə də toxunulub. Bildirilib ki, 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən öldürüldüyü iddia edilən azərbaycanlılara aid məzarların axtarışına başlanılıb. Həmçinin, Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda azərbaycanlılara məxsus onlarla qəbiristanlığın dağıdılması ilə bağlı sübutların üzə çıxılmasına da yer ayrılıb. 2020-ci ildə atəşkəsin əldə olunmasından sonra Ermənistanın daha əvvəl nəzarət etdiyi Azərbaycan ərazilərində 7 azərbaycanlı hərbçi və 29 mülki şəxsin minaya düşərək həlak olduqları, xeyli sayda insanın yaralandığı qeyd edilib. Lakin təəssüf ki, 44 günlük müharibə zamanı Ermənistanın dinc Azərbaycan şəhərlərini bombardman etməsi, onlarla insanın ölümünə səbəb olan qanlı hadisələrə hesabatda toxunulmayıb. Halbuki, dinc şəhərlərdə uşaq və qadınların Ermənistanın raket atəşi nəticəsində öldürülməsi ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlanıb və onlar bundan xəbərdar edilib. Buna rəğmən, Ermənistanın atəşkəsə əməl etməyərək Azərbaycanın cəbhədən uzaq şəhərlərini ağır artilleriya və raket atəşinə tutması hesabatdan kənarda qalıb. Xatırladaq ki, Ermənistanın tək bu barbar və vəhşi hücumu nəticəsində 3 yaşayış binası dağılıb, 9-dan çox mülki şəxs həlak olub və 34-dən çoxu yaralanıb. Ölənlər arasında uşaq və qadınlar da var. Ermənistanın bu cinayəti dinc və günahsız azərbaycanlılara qarşı törədilən Xocalıdan sonra növbəti soyqırım aktıdır. Ümid etmək olar ki, ABŞ başda olmaqla beynəlxalq qurumlar Ermənistanın insanlıq əleyhinə törətdiyi bu cinayətə nəhayət ki, reaksiya verəcək və işğalçı ölkənin cəzalandırılması üçün lazım olan bütün tədbirləri görəcək.

**Millət vəkili Asim Mollazadə ”Şərq”ə deyib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin sayı çox olsa da, ABŞ Dövlət Departamentinin hesabatında onlardan bəhs edilməyib. Deputat bildirib ki, ermənilər qadın, uşaq, qoca demədən mülki insanları qətlə yetiriblər:** ”Müharibə dövründə erməni silahlıları cəbhə boyu və cəbhədən xeyli kənarda olan şəhərlərimizə, kəndlərimizə raketlər atıblar, istifadəsi qadağan olunmuş silahlar tətbiq ediblər. Xatırladım ki, 1994-cü ildə ”Human Rights Watch” öz saytında hesabat təqdim etmişdi. Amma sonradan bu hesabat saytdan yoxa çıxdı. Həmin hesabatda ermənilər tərəfindən əsir alınmış azərbaycanlıların başına gətirilən dəhşətli işgəncələr, orqanlarının çıxarılması və s. faktlar öz əksini tapmışdı. Azərbaycan tərəfi 30 il ərzində Qarabağın işğalı zamanı əsir və girov götürülmüş dörd minə yaxın vətəndaşının taleyindən indiyədək xəbər tuta bilməyib. Torpaqlarımız azad ediləndən sonra bəzi bölgələrdə kütləvi məzarlıqlar üzə çıxır ki, bu da erməni vandalizmini sübut edir. Azərbaycan dövləti ermənilərin bütün vəhşilikləri ilə bağlı ciddi araşdırmalar başladıb. Çox istərdik ki, beynəlxalq təşkilatlar, insan hüquqlarını, müharibə cinayətlərini araşdıran qurumlar, ABŞ-ın Dövlət Departamenti daha obyektiv tədqiqatlar aparsınlar. Hazırladıqları hesabatları doğru olsun, həqiqəti tam əks etdirsin”.

*Milli Məclis üzvü vurğulayıb ki, Ermənistan daxilindəki revanşist qüvvələrin əməlləri, çağırışları da diqqətdən kənarda qalmamalıdır:* ”Ermənistanın daxilində də hərbi cinayətkarlar - koçaryanlar, sarkisyanlar, ohanyanlar yenidən təxribatlara çağırış edirlər, revanşistlər açıqlamalar verirlər. Yeni müharibə arzusu ilə Azərbaycan ərazilərinə iddia irəli sürürlər. Onların bütün ”siyasi karyerası” günahsız insanların amansız qətlləri, hərbi cinayətlər və işğalla bağlıdır. Hərbi cinayətlər dərhal beynəlxalq tribunala cəlb olunmalıdır. Dövlət Departamenti Ukrayna ilə bağlı ətraflı hesabat yayıb. Ümid edirik, Azərbaycanla bağlı da ermənilərin hərbi cinayətləri dəqiq araşdırılacaq. Çünki ortada danılmaz, çox ciddi faktlar var”.

**İsmayıl Qocayev**



# Azərbaycan güclü dövlətdir

## Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq

İsmayıl Qocayev

**"Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq".**

Bu sözləri Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə deyib. Dövlət başçısı bəyan edib ki, Qarabağ və Şərqi Zəngəzurda hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik: "Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi". Ölkə rəhbəri ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarını verib: "Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam. Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir".

Ölkə rəhbəri vurğulayıb ki, Ağalı kəndinin sakinləri artıq bu il orada yerləşəcəklər, orada yaşayacaqlar: "Bu il Ağalı kəndinin açılışı olacaq. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik. Üç məktəbin inşası bu il başa çatmalıdır - Ağdamda 1 nömrəli məktəb, Cəbrayıl şəhərində məktəb və qeyd etdiyim kimi, Şuşa şəhərində məktəb. Hər üç məktəb 960 yerlikdir. Dörd xəstəxana inşa edilir. Şuşa şəhərində xəstəxana bu il istismara veriləcək, Ağdamda 210, Füzulidə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaq". Prezident diqqətə çatdırıb ki, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görülür: "Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları - biz planlı şəkildə bu işləri görəcəyik. Bu, ancaq azad edilmiş torpaqlarda bu il görüləcək işlərin siyahısıdır və əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq. Azad edilmiş torpaqlarda görülən işlərlə bağlı Azərbaycan xalqına bundan sonra da müntəzəm məlumat veriləcəkdir".

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə "Şərq"ə deyib ki, hazırda Azərbaycan dövləti üçün ən prioritet məsələ işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın qısa müddətdə yüksək səviyyədə təmin edilməsidir.** Ekspert bildirib ki, güclü dövlət olan Azərbaycan Böyük Qayıdışı yüksək səviyyədə təmin etmək əzmindədir: "Hazırda işğaldan azad olunan ərazilərdə görülən işlər bu gücü bir daha göstərir. Xatırladaq ki, işğal nəticəsində 7 rayon mərkəzi, 6 şəhər, 12 qəsəbə, 900-ə yaxın kənd, 700-dən çox xəstəxana və tibb müəssisəsi, 150 min yaşayış evi və mənzil, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 160 körpü, 6000 sənaye, kənd təsərrüfatı və digər müəssisələr məhv edilib. Bu ərazilərdə vaxtilə 1 milyon hektardan çox kənd təsərrüfatı sahəsi, o cümlədən 127,7 min hektar suvarılan torpaq və 34,6 min hektar üzüm və meyvə bağları ziyan çəkib. Lakin bütün bunlara baxmayaraq bu gün işğaldan azad olunmuş ərazilərdə planlı şəkildə genişmiqyaslı bərpa və zəruri infrastrukturun yaradılması istiqamətində işlərə başlanılıb. Prezident İlham Əliyev səviyyəsində bərpa və infrastruktur quruculuğu ilə bağlı layihələrin icrası nəzarətdə saxlanılır. Vətən müharibəsindən sonra dövlət başçısı dəfələrlə işğaldan azad olunan ərazilərə səfərə gedib və müxtəlif infrastruktur obyektlərinin təməlqoyma və yaxud açılış mərasimlərinə qatılıb".

**F.Hüseynzadə vurğulayıb ki, ümumiyyətlə, işğaldan azad olunan ərazilərin bərpası xüsusi hazırlanmış sosial-iqtisadi konsepsiyaya uyğun olaraq həyata keçirilir:** "Konsepsiyaya uyğun olaraq planlaşdırmada əsas tutulan sahələrin, şəhərsalma və ərazi qurulması məsələlərinin həll olunması Azərbaycan iqtisadiyyatının inkişafına yeni təkan verəcək. Müxtəlif sahələr üzrə xarici şirkətlərin bərpa işlərinə investisiya yatırması yeni iqtisadi perspektivlərə imkanlar açır. Əhalinin bu ərazilərə qayıdışı, normal həyatın davam etməsilə regionda sülh və əmin-amanlıq da bərpa olunacaq. Prezident İlham Əliyevin bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə qeyd etdiyi kimi, Azərbaycan öz gücü ilə hər şeyi bərpa edəcək və Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracaq. Belə olduqda beynəlxalq birliyin bu regiona baxışı tamam dəyişəcək. Bu da gələcəkdə Qarabağ regionunda beynəlxalq ictimai-siyasi, mədəni-kütləvi tədbirlərin keçirilməsinə rəvac verəcək".

# Ukrayna müharibəsi...

## Çox amansız şəkildə və uzun müddət davam edəcək



"Böyük meydan müharibəsi isə Ukrayna üçün ağır nəticələr doğura bilər"

**"ABŞ və Avropanın son bir həftədə Ukraynaya ayırdığı silah və texnikanın siyahısına və funksiyalarına baxmaq kifayətdir ki, bu mühairbənin çox amansız şəkildə və hələ uzun müddət davam edəcəyi aydın olsun".**

Bu barədə araşdırmaçı-jurnalist, siyasi şərhçi Kənan Rövşənoğlu deyib. Ekspert bildirib ki, Amerika 1960-70-ci illərdə Vyetnamda bütün Şərq bloku ilə savaşırdı: "SSRİ 1979-89-cu illərdə yalnız əfqanlarla deyil, Qərb və müsəlman aləmi ilə vuruşurdu. İndi də Rusiya Ukraynada yalnız Ukrayna ilə deyil, bütünlüklə Qərblə vuruşur. Bu müharibə Rusiya üçün ağır nəticələr verəcək, üstəlik, hər keçən gün nəticələr daha da ağırlaşır. Hətta qazansa belə bu, "Pir qələbəsi" olacaq. Nəzərə almaq lazımdır ki, Ukraynaya yeni silahlar hər gün gəlir və üstəlik, yazın gəlməsi ilə yaşıllıq partizan müharibəsi üçün daha əlverişli şərait yaradır. Nizami orduların dünya təcrübəsində partizan müqavimətini qırması nadir hallarda, özü də ağır itkilərlə mümkün olur. Ukraynada isə bu çox çətin olacaq. Belə anlaşılır ki, ruslar indi Ukraynanı böyük meydan müharibəsinə çəkmək və burda ağır məğlubiyyətə uğratmaqla hərbi və psixoloji üstünlüyü təmin etməyə çalışırlar. Bu, rusların cəbhədə vəziyyəti dəyişmək üçün yeganə ümid yeridir. Amma Ukrayna tərəfi hələlik bu böyük toqquşmadan yayınmağa çalışır. Çünki bu şəkildə aparılan mühairbə Ukrayna üçün əlverişlidir, böyük meydan müharibəsi isə Ukrayna üçün ağır nəticələr doğura bilər".

**İsmayıl**

# Vahid Ələkbərov böyük maliyyə itkisi ilə üzləşəcək

## Milliyətindən asılı olmayaraq, Rusiyada biznes quran, hakim elitaya yaxınlığı ilə tanınan iş adamlarına sanksiyalar tətbiq ediləcək



**Böyük Britaniyanın Rusiyaya qarşı tətbiq etdiyi sanksiya siyahısına düşənlərin əksəriyyətinin adları məlum olub. Siyahıda rus oliqarxlarla yanaşı, "Lukoyl" şirkətinin sahibi, əslən azərbaycanlı milyarder Vahid Ələkbərovun adı var. Eyni zamanda sahibkarlar Səid Kərimov və Fərhad Əhmədov da sanksiyalara məruz qalan şəxslər arasındadır.**

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə deyib ki, sanksiyalar tətbiq olunarkən milli mənsubiyyət yox, vətəndaşlıq nəzərə alınır. Ekspert qeyd edib ki, hətta Avropa ölkələrinin vətəndaşlarına belə Rusiya ilə əməkdaşlıq etdikləri üçün sanksiyalar tətbiq olunub:** "Oliqarx həmyerlilərimiz Rusiya vətəndaşı olduqları üçün onlar da sanksiyalara məruz qalırlar. Sanksiyalar onların şirkətlərinin səhmlərinə ciddi mənfi təsir göstərəcək. Son zamanlar "Lukoyl"un səhmlərində bir qədər artım müşahidə olunurdu. Bunun da səbəbi neftin dünya bazarındakı qiymətinin yüksəlməsi idi. Lakin sanksiya xəbəri açıqlanandan sonra səhmlərin dəyərində enmələr başladı. Milliyətindən asılı olmayaraq, Rusiyada biznes quran, hakim elitaya yaxınlığı ilə tanınan iş adamlarına sanksiyalar tətbiq ediləcək. Nəticədə hamısı böyük maliyyə itkisi ilə üzləşəcəklər. Aktivlərində ciddi azalmalar müşahidə olunacaq və sanksiyalar aradan qalxana kimi davam edəcək".

**İsmayıl Qocayev**

# Çavuşoğlu tamamilə haqlı və düzgün danışır

## Görüşlər ya Türkiyənin, ya da Ermənistanın ərazisində keçirilməlidir



## Ermənistan Türkiyə və Azərbaycanla münasibətləri bərpa etməyə məhkumdur

**Türkiyə və Ermənistan xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyan arasında üçüncü görüş Avstriyanın paytaxtı Vyanada olacaq. Bu barədə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu məlumat verib. XİN başçısı İrəvan-Ankara arasında növbəti təmasın Türkiyə və ya Ermənistanda keçirilməməsinə etirazını bildirib.**

Nazir deyib ki, əgər tərəflər qarşılıqlı etimad mühitinin yaradılmasını istəyirsə, o zaman üçüncü, vasitəçi ölkəyə ehtiyac duymamalıdırlar: "Təzyiq altında ola bilərsiniz. Bu, asan proses deyil. Lakin artıq üçüncü ölkədə görüşməyə ehtiyac varmı? Bir tərəfdən sərhədlər açılsın deyirsiniz, digər tərəfdən isə görüşlərin Türkiyə və Ermənistanda keçirilməsinə cəsarət etmirsiniz". Qeyd edək ki, Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyan arasında sonuncu görüş fevralın 24-də Avstriyanın paytaxtı Vyanada baş tutub.



**Siyasi şərhçi Azər Niftiyev "Şərq"ə açıqlamasında deyib ki, Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri bərpa etməyə məhkumdur.** Analitikin fikrincə, Azərbaycan və Türkiyə ilə gərgin münasibətlər Ermənistana çox ağır zərbələr vurub. Məhz buna görə də, Ermənistan bütün regional iqtisadi layihələrdən kənarda qalıb: "Enerji tranziti ölkəsi kimi Ermənistanın neft və qaz kəmərlərinin öz ərazisindən keçməsinə görə ciddi gəlirlər əldə etmək imkanı var idi. Ancaq ermənilər işğalı üstün tutdular və bütün bu layihələrdən kənarda qaldılar. Ermənistanın siyasi rəhbərliyi sosial problemlər səbəbindən mühacirət edən vətəndaşlarını "qalib ölkə" təbliğatı ilə sakitləşdirməyə çalışırdı. Azərbaycan isə təmkinli və praqmatik siyasət yürütməklə, iqtisadi və hərbi qüdrətini artırmaqla gələcək qələbə üçün zəmin hazırlayırdı. Müharibə öncəsi Prezident İlham Əliyevin xoşluqla torpaqlarımızı tərk etmək tələbini də qulaqardına vurdular. Nəticədə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazandıq. Bu gün isə Ermənistan artıq məğlubdur. İşğal etdiyi ərazilərdən qovulub və paralel olaraq dərin iqtisadi tənəzzül keçirir".

A.Niftiyevin sözlərinə görə, Ermənistan rəhbərliyinin imkanı var ki, gec də olsa, öz səhvlərindən nəticə çıxarsın: "Bu gün diktə edən tərəf Azərbaycandır. Onun ən yaxın müttəfiqi isə Türkiyədir. Ermənistanın belə bir imkanı yoxdur. Düzdür, Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsinin imzalanmasının və Türkiyə ilə münasibətlərin bərpasının vacibliyini bəyan edir. Bu, normal yanaşmadır. Türkiyə ilə Ermənistan arasında münasibətlərin bərpasına yönəlik cəhdlər də müsbətdir. Hətta bu məqsədlə Moskvada bir görüş də keçirilib. Yaxınlarda isə Vyanada növbəti görüşün keçirilməsi nəzərdə tutulur. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu tamamilə haqlı və düzgün vurğulayır ki, görüşlər ya Türkiyənin, ya da Ermənistanın ərazisində keçirilməlidir. Əgər ortada ciddi siyasi iradə varsa, bu, belə də olmalıdır. Lakin bir məsələ də var ki, Ermənistan rupor dövlət olmağa öyrəşib və bu şakərindən xilas ola bilmir".

**İsmayıl Qocayev**



# Soyuq müharibə dövrü qayıdır

## Ekspertlərin narahatçılığı əsassız deyil

**Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu dünyada soyuq müharibənin başladığını bildirib.**

O qeyd edib: "Yeni soyuq savaşın başladığını görürük. Bunun əlamətləri artıq hiss olunur. Müharibə uzandıqca soyuq savaş daha da genişlənəcək. Biz bunu istəmirik. Qütbləşmələrin olmamasını istəyirik və bunun üçün çalışırıq".

**M.Çavuşoğlunun soyuq müharibə ilə bağlı iddialarını "Şərq"ə şərh edən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Rusiya ilə Ukrayna arasındakı müharibədən öncə Rusiyanın Amerikaya təqdim etdiyi təhlükəsizlik müqaviləsindən görünürdü ki, artıq proseslər soyuq müharibəyə doğru gedir:**

"Çünki o, elə bir müqavilə idi ki, Qərb onu qəbul edə bilməzdi. Həm də Rusiya tərəfi bu təhlükəsizlik müqaviləsini paket olaraq təqdim edirdi. Ardınca da Rusiyanın Ukraynaya hücumu başladı. Bu proses göstərirdi ki, İkinci Dünya müharibəsindən sonra baş verən soyuq müharibə dövrü yenidən qayıdır.

Tarixə baxdıqda, İkinci Dünya müharibəsi dövründə də SSRİ və Amerika arasındakı münasibətlər də bu səviyyəyə gəlib çıxmışdı. İndi təxminən eyni proses baş verir. Artıq bütün körpülər yandırılır. Belə olduğu müddətdə təbii ki, soyuq müharibə gözləntisi artır. Bunu Türkiyə XİN-dən öncə beynəlxalq ekspertlər də vurğulayırdı ki, dünya yeni soyuq müharibəyə gedir".

**A.Nərimanlı soyuq müharibənin tərəflərə qazandırdığı nəticələrdən də danışıb:**

"Fikrimcə, əslində proses öncədən planlaşdırılmış kimi görünür. Çünki soyuq müharibə hər iki tərəfə sərf edir. Ümumiyyətlə, böyük imperiyalar üçün bir neçə faktor var ki, onlardan biri müttəfiqlərin saxlanılması, ikincisi, xarici təhlükənin olması, üçüncüsü və ən əsası ideologiyanın daim diri qalmasıdır. Yeni Amerika kontekstinə baxdıqda, Amerika üçün Avropadakı müttəfiqlər sıradan çıxmışdı. Həmçinin, xarici təhlükə faktoru azalmışdı.

Bu baxımdan, yeni soyuq müharibə onun üçün sərfəlidir. Bu müharibədə təhlükə daha böyük oldu, bu, Rusiya idi. O cümlədən, bu təhlükə onun Avropadakı müttəfiqlərini birləşdirdi. Ən mühüm məqam isə azad və qapalı dünya məsələsidir. Baydenin Polşada çıxışı da bunun göstəricisidir. Bayden bildirdi ki, bir tərəfdə tiranlıq var, bir tərəfdə azad dünya və biz tiranlıqla mübarizə aparırıq.

Eyni məsələni biz Rusiyaya da aid edə bilərik. Çünki SSRİ soyuq müharibə dövründə postsovet məkanına nəzarət edirdi. Fikrimcə, Rusiya tərəfi düşünür ki, Ukraynadakı müahirəbədən sonra yaranacaq kəskin münasibətlər onların bölgədəki hakim rolunu qeyri-rəsmi də olsa, tanımağa gətirəcək".

**Çimnaz Şahlar**



# Müharibə olmasaydı, olmazdı

## İndi Paşinyan Qarabağı Azərbaycanın ərazisi kimi tanımağa hazırdır

İsmayıl Qocayev

**Azərbaycan və Ermənistan arasında 1988-ci ildə başlanmış münaqişədən sonra sülhə ən yaxın vəziyyət yaranıb. Ermənistanın Baş naziri Nikol Paşinyanın son açıqlamaları belə deməyə əsas verir. Ermənistan dövlətinin başçısı ilk dəfə Azərbaycana qarşı ərazi iddiasından imtina etdiyini deyib. Baş nazir Nikol Paşinyan bəyan edib ki, Ermənistan və Azərbaycan tezliklə sülh sazişi bağlamalıdır:**

"Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır". Baş nazir həmçinin bildirib ki, İrəvan və Bakı aprelin 30-dək sərhədin delimitasiyası komissiyasının üzvlərini təyin etməlidir. O əlavə edib ki, Ermənistanın Azərbaycana qarşı heç vaxt ərazi iddiası olmayıb və Qarabağ məsələsi ərazi məsələsi deyil, hüquq məsələsidir. Paşinyanın sözlərinə görə, Qarabağ ermənilərinin təhlükəsizliyinə təminat verilməsi, onların hüquq və azadlıqlarının təmin edilməsi Ermənistan üçün prinsipial əhəmiyyət kəsb edir. Xatırladaq ki, Prezident İlham Əliyev aprelin 12-də keçirdiyi müşavirədə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından əl çəkdiyini deyib. Ölkə rəhbəri vurğulayıb ki, İrəvan Azərbaycan tərəfinin təklif etdiyi 5 prinsipdən ibarət təklifə müsbət yanaşıb. Ekspertlərin fikrincə, Paşinyanın parlamentdəki çıxışı bir sıra məqamlar baxımından diqqət çəkir. Hesab edilir ki, sözləri səmimilikdən çox, məcburiyyətdən irəli gəlir. Rəsmi İrəvan anlayır ki, Azərbaycanın ərazi bütövlüyünün tanınmasını nəzərdə tutan sülh sazişinin imzalanmaması ölkənin regionda siyasi-iqtisadi gələcəyini təhlükəyə atır. Sülh sazişi ilə Qarabağdan imtina edilməsi də erməni cəmiyyətində və diasporda ciddi reaksiya doğuracaq. Paşinyan buna görə radikal müxalifətə və dünyadakı erməni lobbisinə mövcud reallıqları anlatmaq istəyir ki, Azərbaycanla sülh sazişi imzalamağa məcbudur.

"Baş nazir ermənilərə bu reallığı da anlatmağa çalışıb ki, Qarabağ erməniləri Azərbaycanın tərkibində bölgəyə qayıdacaq azərbaycanlılarla birgə yaşayışa hazır olmalıdırlar"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Paşinyanın çıxışı Ermənistan ictimaiyyətinə, radikal müxalifətə və dünyadakı erməni lobbisinə mövcud reallıqları anlatmaq məqsədi daşıyırdı:** "Paşinyan dedi ki, beynəlxalq ictimaiyyət Ermənistanı Qarabağın statusu məsələsində "plankanı aşağı endirməyə" çağırır. Paşinyan bunu deyərkən Türkiyənin adını tələffüz etməyi də unutmayıb. Demək istəyib ki, "Azərbaycana qarşı ərazi iddialarını davam etdirsək, qarşımızda yenə Azərbaycan-Türkiyə ittifaqını görəcəyik və bu, ermənilərə növbəti dəfə baha başa gələcək". Bu halda Rusiya və bu ölkənin Ermənistana havayı verdiyi silah da erməniləri xilas edən deyil. İkincisi, Paşinyanın sözlərinə görə, Qarabağ ermənilərinin təhlükəsizliyinin təminatı "statusdan" daha vacibdir və bunu ona Brüsseldə bir daha anladıblar. Beləliklə, Paşinyan radikallardan və Qarabağdakı separatçılardan fərqli olaraq "yalnız müstəqillik" ifadəsini işlətməkdən imtina edib. Çünki anlayır ki, əks halda Azərbaycanla münasibətlər yenidən gərginləşəcək və növbəti müharibə qaçılmaz olacaq. Bununla Paşinyan Qarabağı Azərbaycan ərazisi kimi tanımağa hazır olduğunun mesajını verib. Digər yandan Paşinyan parlamentdəki çıxışında etiraf da edib: "Günahkaram ki, xalqımıza deməmişəm ki, beynəlxalq birlik birmənalı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bizdən də tanıyacağımızı umur, onu da gözləyir ki, Qarabağdan çıxmış azərbaycanlılar da Dağlıq Qarabağın gələcəyinin müəyyən edilməsi və idarəçiliyi məsələlərinə cəlb olunsunlar". Paşinyan ermənilərə bu reallığı da anlatmağa çalışıb ki, Qarabağ erməniləri Azərbaycanın tərkibində bölgəyə qayıdacaq azərbaycanlılarla birgə yaşayışa hazır olmalıdırlar.

Dördüncüsü, Paşinyan başqa bir etirafını da səsləndirib: "7 rayonu Azərbaycana təhvil versəydim müharibə olmaz və minlərlə həyat xilas etmiş olardım. Təhvil verməyərək isə faktiki olaraq minlərlə qurbana səbəb olan qərarların müəllifi oldum".

**E.Şahinoğlu qeyd edib ki, Paşinyanın dediyi kimi, o, münaqişənin həlliylə bağlı "mərhələli həll" planına razılaşsaydı, müharibə olmaz və sülh sazişi imzalanardı:** "Ancaq nəinki Paşinyan, heç bir erməni siyasətçisi Azərbaycan Ordusunun gücünü görmədən, itki vermədən qeyd-şərtsiz Qarabağ ətrafındakı rayonları Azərbaycana qaytarmayacaqdı. Hətta 1990-cı illərin ortalarında "mərhələli həll" planına razılaşan Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan ermənilərin şərtlərinin yerinə yetirilməsi müqabilində cəmi 5 rayonun qaytarılmasına razılaşırdı. Paşinyan müharibə ilə üzləşməsəydi, bəlkə yenə Şuşada içkili vəziyyətdə yallı gedərək Azərbaycana acıq verərdi. Ona görə də müharibə labüd idi ki, Paşinyan bugünkü reallığı anlasın və bunu cəmiyyətinə də anlatsın".

# Mərkəzi Bankın yeni rəhbərliyindən gözləntilər böyükdür

## Vüqar Bayramov: "Bütün hallarda kredit faizlərinə əlçatanlığın artırılması və optimal faiz dərəcələrinin təklifi vacibdir"



**Prezident İlham Əliyevin 13 aprel 2022-ci il tarixli Sərəncamı ilə Mərkəzi Bankın (AMB) sədri vəzifəsinə təyin edilmiş Taleh Kazımov kollektivə təqdim olunub. Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov kollektivə Taleh Kazımovun iş təcrübəsi barədə məlumat verib.**

Ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında ölkənin dayanıqlı sosial-iqtisadi inkişafını, makroiqtisadi və maliyyə sabitliyini, maliyyə-bank sistemində həyata keçirilən mühüm islahatları diqqətə çatdırıb. Həmçinin, maliyyə sektorunun ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynadığını qeyd edib. 38 yaşlı Taleh Kazımov dövlət başçısı və ölkə parlamenti tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirib. MB sədri ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunması, maliyyə-bank sisteminin inkişafı istiqamətlərində qarşıya qoyulan hədəflərin layiqincə yerinə yetiriləcəyinə söz verib. Hər vətəndaşın keyfiyyətli maliyyə, o cümlədən bank, kapital bazarları və sığorta xidmətlərilə əhatə olunması vəzifələrinin layiqli şəkildə icrasının təmin ediləcəyini diqqətə çatdırıb. Məlumat üçün bildirək ki, 38 yaşlı Taleh Kazımov 2000-2004-cü illərdə Azərbaycan Texniki Universitetində təhsil alıb. Sonrakı illərdə "London Biznes Məktəbi"nin və "Harvard Biznes Məktəbi"nin yüksək ixtisas proqramlarını müvəffəqiyyətlə bitirib. O, ənənəvi və rəqəmsal bankçılıq sahəsində, kredit və risklərin idarə olunması üzrə geniş təcrübəyə malikdir. Qeyd edək ki, Elman Rüstəmov 1995-ci ildən Milli Bankın İdarə Heyətinin sədri vəzifəsini icra edirdi.

**Təyinatla bağlı "Şərq"ə danışan millət vəkili Vüqar Bayramov deyib ki, bank sektorunda islahatların müasir çağırışlara uyğun davam etdirilməsi vacibdir. Deputatın sözlərinə görə, bank sektorunda ən önəmli məsələlərdən biri bütövlükdə bankların sağlamlaşdırılması, rəqabətin gücləndirilməsidir:** "Kredit faizlərinin tənzimlənməsi ciddi məsələdir. Etiraf etmək lazımdır ki, kredit faizləri yüksək olaraq qalır. Faizlərin optimallaşdırılması olduqca zəruridir. Təbii ki, burada söhbət faizlərin inzibati yolla tənzimlənməsindən getmir. Amma bütün hallarda kredit faizlərinə əlçatanlığın artırılması və optimal faiz dərəcələrinin təklifi vacibdir. Digər mühüm məsələlərdən biri bankların birləşdirilməsidir. Hesab edirik ki, bank sektorunda rəqabət gücləndirilməlidir. O cümlədən məzənnə və inflyasiya siyasətinin müasir çağırışlara uyğun tənzimlənməsi də mühümdür. Çünki yeni prioritetlər müəyyənləşir, qlobal çağırışlar dəyişir".

**V.Bayramov bildirib ki, bank sektoru qeyri-neft sektorunun inkişafında aparıcı rola malikdir:** "Ona görə də pul-kredit siyasətinin daha ha təkmilləşdirilməsi zəruridir. Yeni dönəmdə faizlər optimallaşdırılmalı, xüsusən, regionlarda kreditlər əlçatan olmalıdır. Ümid edirik, Mərkəzi Bank bununla bağlı intensiv fəaliyyət göstərəcək və gərəkli addımları atacaq. Yeni təyinatdan sonra islahatların aparılacağı gözlənilir".

**İsmayıl Qocayev**

# Kreml sərhədlərin müəyyənləşməsində maraqlı deyil

## Rusiyanı maraqlandıran Zəngəzur dəhlizi və kommunikasiyaların açılmasıdır

**"Ermənistan tərəfi Azərbaycanla münasibətlərin normallaşması prosesinə dair ziddiyyətli açıqlamalar verir və öhdəliklərə əməl etmir".**

"Şərq"in məlumatına görə, bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov moldovalı həmkarı Niku Popesku ilə keçirdiyi mətbuat konfransında deyib. Nazir bildirib ki, Azərbaycanla Ermənistan arasında normallaşma prosesi dövlət sərhədinin müəyyənləşməsindən keçir.

"Azərbaycan sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı ikitərəfli komissiyanın yaradılmasını dəstəkləyir. Ermənistan isə hansısa ön şərt irəli sürmə cəhdlərini ortaya qoyur", - deyə Ceyhun Bayramov əlavə edib. Azərbaycan loyallaşma prosesində əzmli olmağa davam edir. Lakin Ermənistan tərəfi uzadılan əlləri geri çevirir, atılan addımlara qarşılıq vermir, razılaşmaya getmir. Hətta danışıqlar zamanı qəbul etdiyi öhdəlikləri daşımaqdan imtina edir.

**Siyasi şərhçi Rusif Məmmədsoy "Şərq"ə açıqlamasında Ermənistanın delimitasiya və demarkasiya proseslərini başlaması ilə bağlı niyyətli olmadığının narahatlıq doğurduğunu bildirib:**

"Bu məsələnin birmənalı şəkildə yetişməsini istəyirik ki, nəticədə sülh müqaviləsi imzalansın, atəşkəs pozulmasın, qonşuluq münasibətləri formalaşsın, sülhməramlıların çıxması üçün zəmin yaransın. Problem təkcə Ermənistan deyil. Eyni zamanda Rusiyanı da nəzərə almalıyıq. Moskva delimitasiya, demarkasiya məsələsində maraqlı deyil".

*Ekspert hesab edir ki, Rusiyanı maraqlandıran Zəngəzur dəhlizi və kommunikasiyaların açılmasıdır:*

"Bundan əlavə orada hər hansısa münaqişənin tamamilə sönməsi onun maraq dairəsinə cavab vermir. Biz hər vəchlə çalışmalıyıq ki, bu prosesləri sürətləndirək. Həm Ermənistan daxilində, həm Qarabağdakı separatçılar arasında şimal qonşumuzla bağlı qüvvələr var. Onlar hər şeyə mane olmağa çalışır, atəşkəsi pozur".

"Ona görə yaranmış vəziyyətdə Azərbaycan antiterror əməliyyatı tezisini önə sürməlidir"



**Politoloq Azərbaycanın Rusiyaya qarşı müəyyən addımlar ata biləcəyini qeyd edib:**

"Azərbaycanı "tələyə" salmaq istəyirlər. Əlbəttə, biz emosiyalara qapılmamalıyıq. Kremlə daha sərt ritorika ilə cavab verməliyik ki, artıq yetər! Sən bu prosesləri sürətləndirməlisən, öhdəliklərini yerinə yetirməlisən, 10 noyabr bəyannaməsinin dördüncü bəndinə əsasən erməni separatçılarını qovmalısan. Əks halda antiterror əməliyyatlarına start verə bilərik. Bu tezis artıq önə sürülməlidir".

**R.Məmmədsoyun fikrincə, Ermənistan müsbət qərarlar verməsə, çökməyə məruz qalacaq:**

"Digər tərəfdən ötən il dekabrın sonlarına yaxın Rusiyada delimitasiya və demarkasiya ilə bağlı görüş keçirildi. Ermənistan isə Azərbaycanın şərtlərinin onu qane etmədiyini dedi. Biz qalib ölkəyik. Diktə edən tərəf kimi şərtlərimiz olmalıdır. Buna görə də Ermənistan növbəti "dəmir yumruq" istəmirsə, bu proseslərə başlamalıdır. Bunu Rusiyaya rəğmən etməlidir. Həmçinin Türkiyə və Azərbaycan arasında qalan Ermənistan məhvə məhkumdur. Buna görə də onun başqa çarəsi yoxdur. Uzağı 10-15 il dözə bilər. Bu aspektdən rəsmi İrəvan və rəsmi Bakı ilə normal əlaqələr qurulmalıdır".

**Cəmilə Əzim**

# Putin Zelenski görüşü müharibəni bitirə bilər

## Əsas məqam ondan ibarətdir ki, Ukrayna rəhbəri bunu tələsmir




**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiya Prezidenti Vladimir Putin və Ukrayna rəhbəri Vladimir Zelenskinin görüş ehtimalından bəhs edib.**

O, bunun Moskva rəhbərinin qərarından asılı olduğunu bildirib:

"Bu, hər iki liderin, xüsusilə Putinin "hə" deməsindən asılıdır. Əslində, o, "yox" deməyib. Doğrudur, son günlər baş verənlər gərginliyi bir az da artırıb. Tərəflərin görüşməsi üçün tələblər arasındakı fərq azalmalıdır. Bu istiqamətdə isə səylər davam edir".

M.Çavuşoğlu həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı və ukraynalı həmkarları arasında telefon danışığının baş tutacağını söyləyib.

**Mövzu ilə bağlı "Şərq"ə danışan politoloq Turab Rzayev vurğulayıb ki, burada iki əhəmiyyətli məqam var:**

"Birincisi, Putinlə Zelenski görüşüb müharibəni bitirə bilər. Əsas məqam ondan ibarətdir ki, Ukrayna rəhbəri tələsmir. Deyir ki, biz hələ Rusiyaya bir neçə böyük məğlubiyyət yaşatmalıyıq ki, onlar müharibəni bitirməyə hazır olsun. Düşünürəm ki, Zelenski, xüsusilə, "Moskva" kreyseri vurulandan sonra artıq şəraitin yetişdiyini, şimal qonşumuzun geri addım atacağını və öz zəifliyini qəbul edib sülh masasına oturacağını düşünür".

**Politoloq Türkiyənin rolunu izah edib:**

"İkinci məsələ ondan ibarətdir ki, prezidentlərin görüşünü Çavuşoğlunun dilə gətirməsi çox önəmlidir. Çünki Türkiyə Kreml hakimiyyəti və Ukraynanı istər Antalya Diplomatiya Forumunda, istər daha fərqli məcralarda bir araya gətirərək dünyada öz sözünü deyən sülh yaratma missiyası olan hətta Rusiya kimi ölkəni belə barışığa dəvət edə biləcək ölkə olduğunu nümayiş etdirib. Türkiyə artıq dünyada əsaslı rola malikdir. Hər iki ölkəni bir araya gətirə, barışdıra bilər. Hansı ki, bunu nə Qərb, nə də Avropa dövlətləri bacardı".

**Cəmilə**




# 1 AZN metaldan olacaq

## Yumşaq məzənnə siyasətinə keçməyin zamanıdır

**Jurnalist, iqtisadçı-ekspert Razi Abasbəyli öz feysbuk hesabında manatın görkəminin dəyişəcəyi barədə yazıb.**

"Manatın görkəmi dəyişəcək. Dəyəri ilə bağlı rasional islahat aparılacaq. Dəyər qazanacaq, dəyər itirəcək, bəlli deyil. Amma 1 AZN metaldan olacaq böyük ehtimal"- deyə bildirib.

**Mövzu ilə bağlı "Şərq"ə daha əhatəli şərh verən Razi Abasbəyli bildirib ki, baş verən Rusiya-Ukrayna müharibəsindən dolayı iqtisadi problemlər dünyanın tenderində çox ciddi qırılmalara və gərginliyə gətirib çıxarıb:** "Bu da nəticə etibarilə qiymətlərin bahalaşmasına və bir sıra ölkələrin vətəndaşlarının alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olub. Əlbəttə ki, bu həm də Azərbaycan da daxil olmaqla, bir sıra ölkələrin milli valyutalarına təsirləri gücləndirib. Azərbaycan kimi ölkələrin daxili valyutaları xarici şoklar altına düşüb. Nəticədə valyutaların yenidən konvertasiya edilməsinə və dəyərilə bağlı müəyyən qərarların verilməsinə zərurət yaradır".

**Ekspert bildirib ki, Azərbaycanda da manatla bağlı müəyyən islahatlar aparılmalıdır:** "Çox sərt, radikal qərarlar verilməsə belə, indiki situasiyaya uyğun olaraq, bir sıra önləyici tədbirlər həyata keçirmək lazımdır. Xüsusilə də manatla bağlı qərarlar verilməlidir. Əgər qarşıdan gələn turizm mövsümünü nəzərə alsaq, Azərbaycan manatının süni olaraq dəyərdə saxlanılması yox, real bazar dəyərinin tənzimlənməsinə getmək lazımdır. Çünki Rusiya həm də böyük bir turizm bazarı deməkdir. Bu turistlərin Azərbaycana cəlb edilməsini qarşıdakı mövsümdə həyata keçirmək olar. Bunun üçün də zəifləməkdə olan rus rublu ilə müqayisədə Azərbaycan manatınında da müəyyən mənada dəyər azalmasına və yumşaq məzənnə siyasətinə keçmək lazımdır. Ona görə qeyd etmişdim ki, manatın real bazar dəyəri ilə bağlı islahatlar aparılmalıdır. Bir manatlıq əskinasın metal əskinaslarla əvəz edilməsini həyata keçirmək lazımdır. Dollar ilə müqayisədə sərbəst üzən məzənnə siyasətini müəyyən həddə qədər buraxmaq olar. Hesab ediəm ki, bu, Azərbaycan iqtisadiyyatı üçün də faydalı olacaq".

**Çimnaz**

# İrəvandan imtina...

## Xankəndidəki terrorçu rejim Moskvaya sığınmaq istəyir



**Ermənistan Baş naziri Nikol Paşinyanın Qarabağın "statusu"nun arxa plana keçdiyi və Azərbaycanla sülh sazişini bağlamağa məcbur olduqları açıqlamasından sonra Xankəndidəki separatçı-terrorçu rejim təcili "toplantı" keçirib.**

Məqsəd İrəvana etiraz etmək və "status" iddiasının gündəmdən çıxmasına imkan verməməkdir. Baş separatçı Araik Arutyunyan isə yeni "siyasət"lərini elan edib - "İrəvandan imtina, Moskvaya sığınma". Separatçı deyib ki, hazırda de-fakto "müstəqilliklərini" qorumalı, buna de-yure nail olmağa çalışmalıdırlar. Əlavə edib ki, üç seçimləri var, ya "müstəqil" olmalı, ya Ermənistanla birləşməli, ya da Rusiya ilə birbaşa münasibətlər qurulmalıdır. Baş separatçı "mövcudluq" üçün xüsusilə üçüncü seçimin üzərində dayanıb.

*"Qarabağda Azərbaycanın suverenliyinə qarşı açıq oynamaq Cənubi Qafqazda Rusiyanın da maraqlarının nəzərə alındığı şəraiti kökündən dəyişdirə bilər"*

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, proseslər Xankəndidəki separatçı-terrorçu rejimin Moskvaya müraciət edəcəyi ehtimalını ön plana çıxarır. Analitikə görə, düz məntiqlə "müstəqillik", yaxud "Rusiyaya birləşmək" müraciətlərinin Rusiya tərəfindən qəbul edilməsi ehtimalı azdır:** "Birincisi, Moskva "Qarabağın "müstəqilliyini" Ermənistan belə tanımır" mövqeyindən çıxış edir. İkincisi, "Rusiyaya birləşmək" həm coğrafi baxımdan mümkünsüzdür, həm də post-sovet məkanındakı digər separat bölgələrdən fərqli olaraq, Moskvanın burada "əsası" zəifdir. "Rus icması" kartı ortaya atılsa da, Əliyevin dərhal müdaxiləsi ilə dondurulduğu görünür. Bütün bunlarla yanaşı, Qərblə körpüləri yandıran Rusiya Türkiyə və Azərbaycan faktorunu nəzərə alır. Qarabağda Azərbaycanın suverenliyinə qarşı açıq oynamaq Cənubi Qafqazda Rusiyanın da maraqlarının nəzərə alındığı şəraiti kökündən dəyişdirə bilər. Əliyevin 22 fevral tarixində Moskva gedişi də Qarabağda Donbas senarisinin təkrarlanması təhlükəsini neytrallaşdırmaq idi. Bakı risklərə qarşı siyasi və hərbi müstəvidə önləyici tədbirlər görür. Real görünən risk Rusiyanın separatçıların mümkün "müraciəti"ndən öz maraqlarını təmin etmək üçün Azərbaycana qarşı təzyiq kartı kimi istifadə edə biləcəyidir. Hərçənd, xüsusilə Ukraynaya hücum Kremldə son günlər düz məntiqin zəif işlədiyini, yaxud işləmədiyini də göstərir. Bu, risklərin proqnozlaşdırılmasını çətinləşdirir. Bu situasiyada yeganə yol separatçılara qarşı bütün rıçaqların işə salınması görünür".

**İsmayıl Qocayev**




# Şuşa iclasının vaxtı bəlli oldu

## Milli Məclis aprelin 29-da Şuşada toplanacaq

**Milli Məclisin Şuşada keçiriləcək növbəti birgə komitə iclasının vaxtı məlum olub.**

Aprelin 29-da Şuşa şəhərində parlamentin İctimai birliklər və dini qurumlar komitəsi ilə İnsan hüquqları komitəsinin birgə iclası baş tutacaq.

İclasda müzakirə olunacaq məsələlər isə yaxın günlərdə məlum olacaq.

Qeyd edək ki, bundan əvvəl, aprelin 8-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin Şuşada birgə iclası keçirilib.

*Xatırladaq ki, millət vəkili Aydın Mirzəzadə bir neçə gün öncə parlamentin komitə iclaslarının vaxtaşırı Şuşa şəhərində keçirilməsini təklif olaraq irəli sürmüşdü.*

# Ankara tədbir görür

## Türkiyə vətəndaşlığını almaq istəyənlərin sayı artıb

**Türkiyə vətəndaşlığı üçün alınacaq daşınmaz əmlakın dəyəri artırılır.**



*"Təkcə ukraynalılar deyil, rus iş adamları da Türkiyədə daimi məskunlaşmaq istəyir"*

Müraciət üçün alınacaq daşınmaz əmlakın dəyəri 250 min dollardan 400 min dollara qaldırılacaq. Bu məsələ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Nazirlər Kabinetinin iclasında müzakirə edilib. Vətəndaşlıq müraciəti üçün 400 min dollar və ya ekvivalent xarici valyuta məbləğində daşınmaz əmlak almaq kifayət etməyəcək. Qəbul edilən qərarın həyata keçirilməsi üçün Türkiyə Vətəndaşlığı Qanununun Tətbiqinə dair Əsasnaməyə dəyişikliklərin edilməsi gözlənilir.

**Miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənovun "Şərq"ə verdiyi açıqlamaya görə, Türkiyə vətəndaşlığı üçün alınacaq daşınmaz əmlakın dəyərinin artırılması kəmiyyət yox, keyfiyyət önəmlidir prinsipinə söykənir:** "Yaranmış geosiyasi vəziyyətlə əlaqəli Türkiyə vətəndaşlığı almaq istəyən insanların sayında ciddi artım müşahidə edilir. Xüsusən də MDB məkanına daxil olan ölkələrin vətəndaşları öz bizneslərini Türkiyəyə köçürməkdə maraqlıdırlar.

Türkiyə ərazisində oturum izni alıb müvafiq qanuni əsaslarla yaşayan və müəyyən edilmiş dəyərdə mülkiyyət sahibi olan insanların vətəndaşlıq üçün müraciət etməsi qarşısıalınmaz bir prosesdir. Ona görə də Türkiyə hökuməti alınacaq daşınmaz əmlakın dəyərini artırmaqla öz maraqlarını qorumağa çalışır. Şərtlər asan olarsa tələblərə cavab verən bütün müraciətlər qeydə alınmalıdır və hər istəyən şəxsin Türkiyə vətəndaşlığını alması da sonradan ölkə üçün ciddi problemlərə yol aça bilər".

*Ekspertin fikrincə, Türkiyə öz ölkəsində maddi imkanları daha yüksək olan şəxslərin daimi məskunlaşmasını istəyir. Bir sıra Avropa ölkələrində bu təcrübə geniş yayılıb:* "Hökumət görür ki, Ukrayna-Rusiya müharibəsi davam etdiyi müddətdə vətəndaşlıq almaq üçün onlara müraciət edən şəxslərin sayı daha da artacaq. Tək Ukrayna deyil, Rusiya biznesmenlərinin də bir çoxu buna can atır. Hətta onlar sadəcə fərdi qaydada bütünlükdə müəssisələrini Türkiyəyə köçürmək niyyətindədir. Bu prosesin yaxın perspektivdə daha da genişlənəcəyinə dair çox ciddi siqnallar da var. Türkiyə hökuməti də prosesdən maksimum yararlanmaq üçün vətəndaşlıq müraciəti üçün tələb olunan mülkiyyət dəyərini artıracaq".

**Şəymən**



# Ermənilər həmişə yəhudilərə düşmən münasibət sərgiləyib

## Bu kimi faktlar Dövlət Departamentinin diqqətini çəkməyə bilməzdi

**ABŞ Dövlət Departamentinin 2021-ci il hesabatında Ermənistanda antisemitizmin geniş vüsət almasından söz açılıb.**

Hesabatda əks olunub ki, yəhudi icmasının üzvlərinin və digər müşahidəçilərin fikrincə, 2020-ci ilin payız döyüşləri Ermənistanda antisemitizmin, o cümlədən antisemitizm xarakterli sosial media paylaşımlarının sayının artmasına səbəb olub. Bildirilib ki, bu tendensiya daha çox Azərbaycanın döyüşlər vaxtı İsrail istehsalı silahlardan istifadə etməsi ilə əlaqələndirilib. Sənəddə deyilib ki, sentyabr ayından etibarən yəhudi icmasının bəzi üzvləri tez-tez onlara yönəlmiş antisemist şərhlər, xüsusilə də ictimai nəqliyyatda baş verən insidentlər barədə məlumat verməyə başlayıblar. Hesabatda göstərilib ki, 2020-ci ilin sentyabrından 2021-ci ilin fevralınadək İrəvandakı Holokost Memorialı üç dəfə vandalizmə məruz qalıb və hadisəni törətməkdə şübhəli bilinən şəxs saxlanılıb.

**Hesabatda diqqət çəkilən məqamı "Şərq"ə dəyərləndirən siyasi şərhçi Azər Həsrət bildirib ki, ABŞ Dövlət Departamentinin ermənilərin yəhudi dözümsüzlüyünə yer verməsi təsadüfi deyil. Ekspert vurğulayıb ki, əslində ermənilərin yəhudilərə münasibəti 44 günlük müharibəyə görə pisləşməyib:** "Tarix boyu yəhudilər özlərinə rəqib biliblər və bu, sağlam rəqabət olmayıb. Ermənilərin hansı formada "rəqabət" apardığını yaxşı bilirik. Ermənilər arxadan zərbə vurmaqla, xəyanət etməklə "mübarizə" aparırlar. Onların yəhudilərə düşmən münasibət sərgiləməsi Dövlət Departamentinin diqqətini çəkməyə bilməzdi. Budəfəki hesabatda məsələyə əvvəlkilərə nisbətən bir qədər geniş yer verilib. Əslində Qərb mərkəzləri müharibədən öncəki araşdırmalarında bu məqamı vurğulamışdılar. Hesabatlarda göstərilirdi ki, keçmiş sovet ölkələri arasında antisemitizm, İsrail düşmənçiliyinin ən yüksək olduğu ölkə Ermənistandır. Yəhudilərə ən çox nifrət bəsləyən millət ermənilərdir. Qəribə olsa da ermənilərlə farsların yəhudilərə baxışı üst-üstə düşür. İranın yəhudilərə qarşı sərgilədəyi mövqe eyniylə Ermənistan tərəfindən təkrarlanır".

**A.Həsrətin fikrincə, hesabatda göstərilənlər məsələnin tamamı deyil və Vaşinqton hələ də erməniləri müdafiə edir:** "ABŞ Dövlət Departamenti yenə də öz tərəfsizliyini gözləyə bilmir və qərəzli yanaşma sərgiləyir. Sadəcə bu dəfə yəhudi məsələsi çox qabarıq olduğuna və müraciətlər edildiyinə görə, hesabatda bu məsələni əks etdirməyə məcbur qalıblar".

**İsmayıl Qocayev**



# Dünya ikiüzlüdür...

## Aqil Abbas: "44 günə torpaqlarımızı azad etdik deyə, bizim tərəfə keçdilər"

**ABŞ Dövlət Departamentinin rəsmi saytında 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabat verilib.**

Hesabatın Ermənistan hissəsində 2020-ci ildə etnik erməni qüvvələrinin bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirdiklərinə və işgəncəyə, ləyaqəti alçaldan rəftara məruz qoyduqlarına dair informasiya yazılıb.

Bundan əlavə, Azərbaycan Baş Prokurorluğu Kəlbəcər rayonunun Başlıbel kəndində 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən öldürüldüyü iddia edilən azərbaycanlılara aid məzarların axtarışına başlayıb. Həmçinin, Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda azərbaycanlılara məxsus onlarla qəbiristanlığın dağıdılmasına dair sübutlar üzə çıxıb. 2020-ci ildəki atəşkəsdən sonra Ermənistanın daha əvvəl nəzarət etdiyi Azərbaycan ərazilərində 7 azərbaycanlı hərbçi və 29 mülki şəxsin minaya düşərək həlak olduqları, xeyli sayda insanın yaralandığı vurğulanıb.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən millət vəkili Aqil Abbasın sözlərinə görə, dünya Azərbaycanın gücünü görüb:**

"Bizim nələrə qadir olduğumuzu anladılar, indi də haqqın səsini çatdırırlar. Dünya ikiüzlüdür. Öncə onları dəstəkləyirdilər. 44 günə torpaqlarımızı azad etdik deyə, bizim tərəfə keçdilər. Azərbaycan strateji nöqtədə yerləşən ölkədir.

Prezident müşavirədə demişdi ki, sözügedən məsələləri beynəlxalq müstəvidə həllinə qovuşduracağıq".

**Aygün Tahir**

# Hər dövlət özünü qoruyur

## İndiki vəziyyətdə İsveç və Finlandiyanın NATO-ya üzv olacağı real görünmür

**Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev açıqlamasında bildirib ki, İsveç və Finlandiya NATO-ya üzv qəbul olunarsa, Rusiyanın düşmənlərinin sayı artacaq:**

"İsveç və Finlandiya NATO-ya qoşulmaq imkanlarını müzakirə edir. ABŞ hər imkanda Şimali Avropa ölkələrinə "Welcome!" deyir. Sadəcə qapımızı döyün, sizi dərhal evə dəvət edək. Bu nə deməkdir? Bu o deməkdir ki, Rusiyanın rəsmi düşmənlərinin sayı artacaq".

O, həmçinin Rusiyanın buna soyuqqanlı cavab verəcəyini qeyd edib: "İsveç və Finlandiya NATO-ya daxil olsa, Alyansın Rusiya ilə quru sərhədlərinin uzunluğu iki dəfə artacaq. Təbii ki, bu sərhədləri möhkəmləndirmək lazım gələcək. Quru qoşunları və HHM ciddi şəkildə gücləndirilməli, Fin körfəzi hövzəsində xeyli hərbi-dəniz qüvvələri yerləşdirilməlidir. Bu olduğu halda, Baltik dənizinin nüvəsiz statusundan söhbət belə gedə bilməz. Balans bərpa edilməlidir. İndiyədək Rusiya belə addımlar atmırdı və atmağa da hazırlaşmırdı".

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, İsveç və Finlandiyanın NATO-ya üzvlük məsələsi uzun müddətdir müzakirə olunur:**



"Dəfələrlə bu iki ölkənin hakimiyyət təmsilçilərindən Alyansa üzvlüklə bağlı fikirlər səsləndirilib. Rəsmi Stokholm və rəsmi Helsinki hər zaman Rusiya ilə münasibətlərin normal qalmağına çalışıb. Həmçinin Rusiyanın NATO-nun onun sərhədlərinə daha da yaxınlaşmağı məsələsindən narahatlıq keçirəcəyini düşündüyü üçün bu məsələlərdə neytral və məsafəli davranmağa çalışıb. Amma son günlər hər iki ölkədən səslənən fikirlər də əvvəlki mesajların davamı xarakteri daşıyır. Yəni həmişəki kimi, adıçəkilən dövlətlər növbəti dəfə Hərbi alyansa üzvlük mesajları versə də, real və praktik olaraq NATO-nun tərkibinə qatılmayacaq. Çünki Ukrayna ilə bağlı hadisələr də göstərib ki, Şimali Atlantika alyansının Kreml sərhədlərinə çox yaxınlaşmağı növbəti aqressiyalara səbəb olur. Medvedyevin də bəyanatları ənənəvi Rusiyanın xəbərdaredici açıqlamalarından biridir. Hətta təşkilata üzv qəbul olunsa belə, rəsmi Moskvanın vəziyyətinin ağırlaşacağını hesab etmirəm. Rusiya buna cavab olaraq Şimali Avropa ölkələri ilə sərhədlərində silahların, raket arsenallarının sayını artıracaq. Bu da Şimali Avropa ölkələrində müəyyən qədər narahatlığa səbəb olacaq. Ümumilikdə hazırda belə bir addımın atılması qeyri-mümkün görünür. Düzdür, NATO İsveç və Finlandiyanın təşkilata üzv olmağı üçün uzun müddətdir cəhdlər edir. Özəlliklə, Rusiya-Ukrayna gərginliyindən sonra bu məqsədə nail olmaq üçün hətta üzvlük məsələlərində Şimali Avropa ölkələri üçün müəyyən sadələşdirmələr də edə bilər. Amma indiki şəraitdə rəsmi Stokholm və rəsmi Helsinkinin belə bir addım atacağı real görünmür".

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği



# "Azərbaycanı zəfərə aparan Lider"

## "Prezident İlham Əliyev xalqımızı azərbaycançılıq ideologiyası ətrafında birləşdirən liderdir"

**Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan azərbaycançılıq ideyasının inkişafı, şübhəsiz ki, cənab İlham Əliyevin prezidentliyi dönəmində uğurla davam etdirilib. İctimai, siyasi, iqtisadi - həyatın bütün sahələrində ulu öndərin Azərbaycan xalqının rifahına yönəlmiş siyasətinin layiqli davamçısı olan cənab Prezident, o cümlədən azərbaycançılıq ideyasının da aparıcı qüvvəsinə çevrildi. Azərbaycançılıq ideologiyası İlham Əliyev siyasətində etnik, ideoloji və siyasi-mənəvi standartdır.**

Müasir Azərbaycanda hər bir azərbaycanlı dünya xalqları ilə eyni sırada dayanır. Xalqımızın malik olduğu yüksək insani keyfiyyətlər, vətənpərvərlik Azərbaycan sevgisi çətiri altında birləşir. 2018-ci il aprelin 11-də cənab İlham Əliyevin növbəti 7 illik müddət üçün yenidən Prezident seçilməsinin ildönümü münasibətilə bu günlərdə siyasi, ictimai təşkilatlar tərəfindən müxtəlif tədbirlər, elmi konfranslar keçirilir. Bu tədbir və konfranslarda cənab Prezidentin uğurlu daxili və xarici siyasəti, sosialyönümlü layihələrə daim üstünlük verməsi və əlbəttə ki, 44 günlük Vətən müharibəsində qazanılan böyük qələbə, 30 ilə yaxın müddətdə işğal altında qalmış ərazilərimizin azad olunmasından danışılır. Bildirilir ki, Vətən müharibəsi, ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıtmasından sonra başlanan dirçəlişin Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilməsinə, Azərbaycanın nüfuzunun beynəlxalq aləmdə artmasına sevinən xalqımıza əvəzolunmaz milli qürur hissi yaşatdı. Tarix boyu Vətən sevgisi ətrafına birləşən xalqımız Vətən müharibəsində məhz azərbaycançılıq ideyasına söykənərək düşmənə layiqli cavab verdi. Milli qürur hissini əməliylə isbat etdi. Təbii ki, bu hisslərin qol-budaq atması ulu öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", geniş siyasi-fəlsəfəsinə və cənab İlham Əliyevin "mən hər bir azərbaycanlının Prezidentiyəm" məntiqindən irəli gəlirdi.

2018-ci il aprelin 11-də cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsinə həsr olunmuş konfranslardan biri də Azərbaycan Dillər Universitetində keçirilib. "Azərbaycanı zəfərə aparan Lider" mövzusunda təşkil olunmuş konfransda ADU rəhbərliyi ilə yanaşı, professor-müəllim heyəti, tələbələr, Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyası və partiyanın Nəsimi rayon şöbəsinin üzvləri iştirak edib. ADU-nun rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin dövləti, xalqı Zəfərə aparan lider olduğunu qeyd edib: "Bu gün Azərbaycan özünün ən güclü, ən inamlı və ən uğurlu illərini yaşayır. 44 gün davam edən Zəfər salnaməmizlə Müzəffər öndərimiz Azərbaycanın gücünü, potensialını bütün dünyaya sübut etdi. Bütün dünya bu gün Azərbaycan xalqının həm mədəniyyətini, həm intellektual səviyyəsini, həm döyüş bacarığını, həm onun diplomatik gücünü gördü və bir daha biz öz bildiyimiz adekvat həqiqətimizi dünyaya çatdırdıq. Dünyanın son dərəcə qarışıq bir dövründə bu işi bacarmaq asan məsələ deyildi. Biz bunu bacardıq, Ali Baş Komandan İlham Əliyevin sayəsində, şəhidlərimizin sayəsində, qazilərimizin sayəsində, xalq olaraq yumruq kimi birləşib böyük tarixi qələbəmizə imza atdıq. Cənab Prezident uzaqgörən siyasəti, müdrik addımları və cəsarətli qərarları ilə Azərbaycanı daha da gücləndirdi, Azərbaycanın haqq işini bütün dünyaya çatdıra bildi. Ali Baş Komandan sübut etdi ki, o, xalqın yanındadır və xalq da hər zaman onun yanındadır". Məruzələr cənab Prezidentin xarici siyasət kursu, ölkəmizdə sosial proqramların icrası, beynəlxalq enerji layihələrinin Azərbaycana qazandırdığı üstünlüklər, 44 günlük Vətən müharibəsi, Azərbaycanın güc mərkəzi kimi qəbul olunması üzərində qurulub. ADU Tələbə Gənclər Təşkilatının sədri Elşən Hüseynli isə "Azərbaycançılıq ideologiyasının gəncliyin formalaşmasında rolu" mövzusunda çıxış edib. Tələbə Gənclər Təşkilatının sədri azərbaycançılıq ideologiyasından, xalqın bu dövlət ideologiyası ətrafında birləşməsindən, dövlət ideologiyasının gəncliyin formalaşmasındakı rolundan, dövlətin gənclərə olan qayğısından danışıb. Gənclərin daima dövlətin yanında olduğunu və Azərbaycanın inkişafı üçün bütün gənclərin səfərbər olduğunu bildirib.

**Qeyd edək ki, "Heydər Əliyev - İlham Əliyev: azərbaycançılığın zəfər yolu" kitabının müəllifi, tarix elmləri doktoru, uzun müddət xarici ölkələrdə səfir olaraq Azərbaycan dövlətini təmsil etmiş Eynulla Mədətli hesab edir ki, Vətən müharibəsində qazanılan şanlı qələbənin ən möhkəm dayağı məhz azərbaycançılıq ideologiyası oldu:**

- O günlərdə ordumuza ümumxalq dəstəyini, dövlətlə xalqın bütün təbəqələrinin, hətta əks qütblərdə yer alan partiya və təşkilatların indiyədək misli görünməmiş həmrəyliyini, ölkə daxilində və xarici ölkələrdə torpaq bütövlüyümüz uğrunda vətəndaşlarımızın əzmkarlıqla çıxış etdiklərini, Azərbaycan dövlətinə və onun ordusuna dəstək aksiyaları keçirdiklərini həyəcansız izləmək mümkün deyildi. Prezident İlham Əliyevin zəfər strategiyasına azərbaycançılıq ideologiyasının potensialı kontekstində nəzər salsaq, məsələnin mərkəzində insan amilinin, hər bir azərbaycanlının sarsılmaz həmrəyliyinin dayandığını görərik. Bu həmrəyliyin bariz nümunəsi məhz 44 günlük Vətən müharibəsində öz təsdiqini tapdı. Məhz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun əzmi, gücü, hərbi üstünlüyü və xalqımızın birliyi sayəsində tarixi torpaqlarımız işğaldan azad olundu. Vətən müharibəsində qəhrəmanlıqla həlak olan, yaxud qazi olan Vətən müharibəsi qəhrəmanlarımızın döyüş yolu xalqımızın qəlbində və zehniyyətində əbədi həkk olunan Zəfər yoludur; bölünməz, vahid, qüdrətli, gələcəyinə inanan və ona doğru inamla irəliləyən böyük xalqın Qələbə yoludur; öz soykökümüzə, əcdadlarımızın bizə miras qoyduğu ənənələrə Sədaqət yoludur; azad edilmiş torpaqlarımızın dirçəldilməsi və Quruculuq yoludur; xalqımızın ulu öndər Heydər Əliyev siyasətinə, bu siyasəti polad iradəsi ilə dönmədən həyata keçirən, Azərbaycanın ərazi bütövlüyünü təmin edən, tarixi qələbənin memarı və komandanı Prezident İlham Əliyevə inam yoludur.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Ətrafda qəfil ölümlər dolaşır

## Hər kəs normal 8 saat yuxu yatmalıdır

**Qəfil ölümlərin sayı niyə artır? Bu sual təsadüfdən yaranmayıb. Son günlərdə bir neçə qəfil ölüm hadisəsinin baş verdiyi bildirilir. Əksəriyyəti də məktəbyaşlı uşaqlar, gənclərdir. Bakının Sabunçu rayonu, 67 saylı orta məktəbin VIII sinif şagirdi Ramal Zaur oğlu Osmanov, Cəlilabad rayonu, V.Mürsəlov adına Göytəpə şəhər 1 saylı tam orta məktəbin VI sinif şagirdi Bağıyev Elçin Faiq oğlu dərs zamanı anidən vəfat edib.**

Şagirdlərin ölüm səbəbi hələ dəqiqləşməyib. Paytaxtda isə Azərbaycan Texniki Universitetinin Xüsusi texnika və texnologiya fakültəsinin 4-cü kurs tələbəsi Sona Qarazadə 22 yaşında qəflətən vəfat edib. Universitetdən Lent.az-a verilən məlumatda bildirilib ki, tələbə qəflətən dünyasını dəyişib: "Sona Qarazadənin başında şiş aşkarlanıb. Çox güman ki, xərçəng olub. O, evdə qəflətən vəfat edib". Qeyd edilir ki, Sona Qarazadə universitetin əlaçı tələbələrindən idi.

**Bir şagird və bir gəncin ölümünə nə səbəb ola bilər? Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında "qəfil ölüm" ifadəsinin yerində işlədilmədiyini dedi:**

- Qəfləti ölüm yalnız körpələrdə olur. Məktəb yaşlı uşaqlarda, eləcə də yeniyetmə və gənclərdə qəfil ölüm ola bilməz. Ölümə səbəb olan amillər mütləq vardır. VI sinif şagirdinin ölüm səbəbi bilinmir, amma gənc qızımızın başında şiş olduğu bildirilib. Bəlkə də aləsindən alınıb bu məlumat. Əgər gənc qızın başında həqiqətən şiş vardısa, böyük ehtimalla davamlı baş ağrıları, ürək bulanma, qusma, halsızlıq, zəiflik olurmuş. Deməli, şiş o qədər böyüyüb ki, ölümə gətirib çıxarıb artıq. VI sinif şagirdinin də səhhətində görünür, hansısa problemlər varmış, hansısa xəstəliyi varmış. Bəlkə valideynləri bilir, bəlkə də bilməyiblər. Bəzi valideynlər uşağın hansısa xəstəliyi olmasını məktəbdən gizlədir. Amma nahaq yerə. Məktəb bunu bilməlidir. Bütün məktəblərdə hər bir şagirdin xüsusi tibbi kitabçası - "kartoçka"sı olmalıdır. Orada şagirdin səhhəti barədə, hansı xəstəliyi keçirib və ya hansı xəstəliyi var, hamısı qeyd edilməlidir. Bəlkə şagirdin elə bir xəstəliyi var ki, ona idman hərəkətləri etmək, qaçmaq olmaz? Bunu məktəb rəhbərliyi, müəllimlər bilməli və buna uyğun davranmalıdırlar. Orta məktəblərdə tibbi xidmət lazımi səviyyədə deyil. Bu da önəmli məsələdir. Amma valideynin övladının xəstəliyini, səhhət problemlərini gizlətməsi də bir dərddir, valideynin övladının xəstəliyindən xəbərsiz olması da başqa bir dərddir. Hər yaşın özünün tibbi müayinə müddəti var. 1 yaşa qədər uşaqlar hər ay tibbi müayinədən keçirilməlidir. Sonra müayinə müddəti arasındakı fasilə yavaş-yavaş uzanır. Əvvəlcə 3 aydan bir, sonra 6 aydan bir və nəhayət, ildə 1 dəfə müayinə. Profilaktika baxımından tibbi müayinə vacibdir. Əgər konkret xəstəlik varsa, artıq söhbət müalicədən gedəcək. Ən qınanılası budur ki, valideyn övladını həkim müayinəsinə aparmır. Uşağı apar həkimə, bilinsin ki, nəyi var, nəyi yox. Bəzən maddi imkanı səbəb gətirirlər, amma bu, sadəcə bəhanədir. Poliklinikada heç bir həkim uşağın müayinəsinə görə pul tələb etməz. Uşaqları vaxtlı-vaxtında mütləq həkim müayinəsindən keçirmək lazımdır.

*"Gənclərin böyük əksəriyyəti yatağa telefonla uzanır, beyinlərini yorurlar"*

**Pediatr həmçinin uşaqların gündəlik rejimi ilə bağlı da valideynlərə xəbərdarlıq etdi:**

- Uşaqlar normal yuxu yatmalıdır. Normal yuxu 8 saatdır. Yataq otağında internet şəbəkəsi varsa, söndürülməlidir. Təəssüf ki, uşaqların, gənclərin böyük əksəriyyəti yatağa telefonla uzanır, telefon yataqda da əllərindən düşmür. Yuxuya getməzdən əvvəl də smartfonları balışın altına qoyurlar. Gecə yarıya qədər telefondakı videoları izləyirlər, mesajlaşırlar. Bütün bunlar beyni yorur. Yorğunluğun özü də orqanizmdə ciddi fəsadlar törədir. Qan dövranını pozur. Ürəyin normal ritminə mənfi təsir edir. Daim valideynlərə məsləhət görürük ki, uşaqları təbii qidalara alışdırsınlar, süni qidalardan uzaq dursunlar. Hansı məktəbin önünə getsəniz, dərsdən çıxan uşaqların əlində "kreker", "paloçka", "suxariki", çipsi görəcəksiz. Sonra da uşağın sağlamlığından gileylənirlər.

**Məlahət Rzayeva**

# Körpələrin bəxtləri gətirdi

## Daha bağça tərbiyəçiləri işə imtahanla götürüləcək



*Azyaşlıların uşaq bağçalarına qəbulu da elektron qaydada təşkil olunacaq*

**Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdiri Elnur Əliyev deyib ki, indiyə qədər tərbiyəçiləri bağça müdirləri işə qəbul edib, lakin artıq onlar xüsusi imtahanla işə götürüləcəklər. E.Əliyev bildirib ki, imtahanlar adətən yay mövsümündə keçirilir: "Müvafiq ixtisas üzrə imtahanlardan uğurla keçən müəllimlər bağçaların vakant yerlərinə qəbul ediləcək".**

O, həmçinin əlavə edib ki, məktəbəqdər təhsil müəssisələrinin Təhsil Nazirliyinə (TN) verilməsi özü də proses olaraq vaxt aparıb. Burada müvafiq elektron sistemləri qurub, hazırlamaq üçün vaxt lazımdır. Hazırda işlər davam edir. İyul ayından etibarən bağçalara uşaq qəbulunun başlanması nəzərdə tutulub".

**Təhsil üzrə ekspert Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirib ki, 2011-ci ildə dövlət başçısının sərəncamına əsasən, uşaq bağçaları icra hakimiyyətlərinə verilib:** "Həmin zamanda uşaq bağçaları və körpələr evinə işə qəbul prosesində hər hansı şəffaflıq görmədik. Hazırda Azərbaycanda 1693 uşaq bağçası var. 123 min azyaşlı təlim-tərbiyə prosesinə cəlb olunub. Onlarla 36 minə yaxın işçi çalışır. Etiraf edək ki, bu qədər işçinin işə qəbul prosesi qeyri-şəffaf həyata keçirilib. Amma 2021-ci ilin dekabrında ölkə prezidentinin digər sərəncamına müvafiq olaraq, uşaq bağçaları yenidən TN-ə verilib. Bu istiqamətdə ciddi işlər görüləcək. İlk növbədə, azyaşlıların uşaq bağçasına qəbul gedişatı məktəbəqədərdə, 1-ci siniflərdə olduğu kimi, elektron qaydada təşkil olunacaq. Çünki əvvəl qəbul zamanı əsassız tələblər olub. Bundan başqa, müəllim, tərbiyəçi, rəhbər heyətin işə qəbulu yeni qaydalarla reallaşdırılacaq. Bu, kifayət qədər yaxşı haldır. İşə götürülənlər təbii ki, 2017-ci ildə qəbul edilmiş məktəbəqədər təhsil haqqında qanunun tələbinə görə, yalnız ali və orta ixtisaslı şəxslər olacaq. Bu sahə üzrə gənclərimizin işlə təmin olunması problemi var idi. Mövcud məsələ həllini tapacaq".

*Ekspert hesab edir ki, imtahan iştirakçılarının psixologiyalarını, uşaqlarla işləmə metodikalarını yoxlamaq lazımdır:* "Belə olduğu halda, azyaşlılarla daha hazırlıqlı gənclər işləyə biləcəklər. Digər həll olunmalı məsələ qida menyusunun vaxtında və keyfiyyətli verilməsidir. Ümid edək ki, bu istiqamətdə də mövcud problemlər aradan qaldırılacaq. Ümumilikdə təbii ki, TN-in gerçəkləşdirdiyi bütün işə qəbul prosesi aydın, əlçatan və daha savadlı şəxslərin cəlb olunmasına yönəlmiş bir addımdır. Bu gedişat Azərbaycanda məktəqədər təhsilin inkişafına öz müsbət təsirini göstərəcək. Çünki 10 il ərzində bir çox hallarda uşaq bağçalarının yerinin özəlləşdirilib, satılması müşahidə edilib".

**Sücayət Mehti**

# Vəfa borcu...

## Ukraynalılar Antalyada küçələri təmizləyir



**Müharibə dəhşətlərindən qaçaraq Türkiyəyə sığınan ukraynalı qaçqınların Antalyada zibil toplaması sosial mediada gündəm olub. Həmin anları ukraynalı Katerina Semeriç "Türkiyəyə və türk xalqına qonaqpərvərliyə görə təşəkkür etmək istəyirik" sözləri ilə paylaşıb.**

Katerina 1 il əvvəl Antalyaya turist olaraq gəldiyini və burada dincəldiyini, indi isə qaçqın kimi bu ölkəyə sığındığını xatırladıb. Katerina Rusiya işğalı başladıqda yaşadıqları dəhşəti "Milliyyet.com"a anladıb. Hazırda Türkiyədə ukraynalı qaçqınların sayı 60 minə yaxındır. Türkiyəyə sığınanlardan biri də Katerina Semeriçdir. Katerina 24 yaşındadır. Ukraynanın Çerkassı bölgəsindəndir. 8 il paytaxt Kiyevdə yaşayıb, ali təhsil alıb. Rusiya işğalının başlandığı 24 fevral gecəsi Katerina yeni mənzilinə köçməyinin sevincini yaşayırmış. Amma anidən hər şey dəyişib. Kabus başlayıb. Həyatı qaranlığa bürünüb. Katerina ailəsiylə bir yerdə olmaq üçün mənzildən çıxıb və valideynlərinin yaşadığı yerə gedib. Yol boyu hər tərəfdə xaos yaşandığını görüb. Qırıcı təyyarələr əhalinin başı üzərindən uçurmuş. Çox qorxub: "O anda bir əsgərlə göz-gözə gəldik. Ağladığımı gördü, mənə gülümsədi. Əlini sinəsinə qoyub ürək işarəsi göstərdi. Onun bu hərəkəti, "bəlkə bu əsgəri bir daha görməyəcəm" duyğusu məni daha çox ağlatdı". Katerina qaçqınların bir qismi ilə Rumıniya sərhədini keçərək Türkiyəyə gəlib. Sərhədi keçdiyini Katerina belə anladıb: "O günlərdə hələ qaçqınlar çox deyildi. Yollar nisbətən boş idi. Sərhədi tez keçdik. Sərhədi keçəndə Vətənimin arxada qaldığını düşünüb özümü xain kimi hiss etdim". Katerina deyib ki, hazırda ailəsi də Türkiyədədir. Anası tarix müəllimidir. Atası isə orduya qatılmaq üçün Ukraynada qalıb. Nədən Türkiyəyə gəlib? Katerina Türkiyədə dostlarının olduğunu, bu ölkəni güvənli hesab etdiyini, ötən il isə Antalyada dincəldiyini xatırladıb: "Bizə yardım edən türk xalqına təşəkkür etmək istədik. Bu səbəbdən də Antalyada zibilləri toplamağa başladıq. Bu ölkə üçün faydalı bir iş görməyimiz məni sevindirir".

**Məlahət**

# Təkcə at və eşşək əti deyil, mundar heyvan əti də satırlar

## Eyyub Hüseynov: "Səlahiyyətli şəxs olsaydım, həmin heyvanlardan bir xaş bişirtdirərdim, bu işlə məşğul olanlara zorla yedizdirərdim"



**İstifadəyə yararsız 4 ton at və mal əti satan mütəşəkkil dəstə üzvləri həbs edilib. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.**

Bildirilib ki, DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə tədbir keçirilib. Xaçmaz rayonunda ət tədarükü məntəqəsi yaradıb heyvan kəsimi sexi görüntüsü adı altında pərdələnən dəstə üzvləri ifşa olunub.

Toplanan materiallar əsasında müəyyən edilib ki, Xaçmaz rayon sakini Azik Babayev başçılıq etdiyi dəstənin üzvləri Hatəm Bayramov və Yalçın Babalıyevlə birgə ölmüş at və iri buynuzlu heyvanların ətinin toplanması, tədarükü və satışı ilə məşğul olublar.

Müəyyən ərzaqlar var ki, onları ölkə vətəndaşları yemir. At, eşşək və s. tipli heyvan ətləri də onların qida rasionunda deyil. Bu həm dini, həm də ənənəvi nəsnələrlə, dəyərlərlə bağlıdır. Təəssüf ki, bəzi insanlar öz mənfəətləri üçün bu cür ətləri əhaliyə sırıyır. Görülən tədbirlər də nəticə vermir. Hətta məhkəmələr bu cür insanları həbs etmir, yalnız cərimələyərək cəzalandırır.

**Məsələ ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov düşmənlərimizin də bu məsələdən istifadə etdiyini bildirib:**

"Azad İstehlakçılar Birliyində bir kitabça var. 1967-ci ildə hazırlanıb. 15 müttəfiq respublika arasında təkcə Azərbaycanda eşşək əti yeməli ət kimi şərh olunub. Ətin qiyməti, yağlığı və s. qeyd edilib. İllər öncə müəyyən işlər apardıq. Məlum oldu ki, o kitabçanı ermənilər hazırlayıb. Biz bununla razı deyilik. Bu, Azərbaycan üçün ənənəvi qida deyil. Düşmənlərimiz də bundan istifadə edərək bizi vəhşi xalq kimi təqdim edirlər. Sovet vaxtı elə sənədlər meydana çıxırdı. Birmənalı şəkildə bu tip ətlər yeyilməz və islam dininə görə də haramdır".

**Birlik sədri sovet dövrü ilə müstəqillik dövrümüzün müqayisəsini verib:**

"Sovet vaxtı kim murdar ət satardısa, onun yeddinci nəslinəcən başına vurardılar. Təəssüf ki, müstəqillik dövrü başlayandan sonra, hətta əhali varlansa belə, bu, davam etdi. AİB 24 ildir, bu leş tayfasını təqib edir. Bu prosesdə ən uğurlu işi Daxili İşlər Nazirliyi yanında Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi görür. Çünki bu qurum cinayətkarları cərimələyib getməsinə imkan vermir, həbs edir. Ancaq məhkəmələr nədənsə bunlara bəraət verib azadlığa buraxır. Heydər Əliyev demişkən, ömrümün axırınacan o məhkəmələri ifşa etməklə məşğul olacam".

Sədr yararsız ət satanların ifşasında iştirakından bəhs edib:

"Məsələ təkcə at və eşşək əti də deyil. Ölmüş və mundar olmuş heyvanların ətini satırlar. Səlahiyyətli şəxs olsaydım, həmin heyvanlardan bir xaş bişirtdirərdim, bu işlə məşğul olanlara zorla yedizdirərdim. Buna qarşı ümumxalq mübarizəsi qalxmalıdır. Çünki bələdiyyələrin, qurumların və xalqın gözü qarşısında yaramazlar bunu edirlər. Dəfələrlə bu cür insanların ifşasında iştirak etmişəm. Məndə onların vizit kartları var. Rayonlarda bu işlə məşğul olanların üstünə adamlar göndərmişəm. Axundlarıyla danışmışam ki, kəndinizdə belə bir şey baş verir. Məsələn, Xəlfəli kəndində bu cür hadisə olmuşdu. Daxili İşlər Nazirliyi aşkarlamışdı. Mən bilən orada sakitçilik olurdu, belə şeylər yox idi. Azad İstehlakçılar Birliyi nəzarət edirdi".

E.Hüseynov məsul şəxslərin bu məsələyə laqeyd yanaşdığını qeyd edib:

"DİN-ə təşəkkür edirəm. Həqiqətən, digərlərindən çox fərqlənir. Çünki digər qurumlar, xüsusilə də Kənd Təsərrüfatı Nazirliyi yararsız ət satanları cərimələyib buraxırdılar. Amma DİN həm cəzalandırır, həm də ifşa edir".

*E.Hüseynova görə, ölkədə yuxarı vəzifədən tutmuş adi vətəndaşa qədər hər kəs bir olsa, bu məsələ kökündən yox olar:*

"Yeyilə bilməyəcək ətlərlə bağlı sənəd olmalıdır. Kənd Təsərrüfatı Nazirliyinin idarə rəisi çıxış etdi ki, hər bir əti yemək olar, sadəcə istehlakçını aldatmamaq üçün adını qoymaq lazımdır. Bəli, de-yure belədir. Lakin de-fakto belə olmalı deyil. Hər birimiz mübarizə apararaq ölkədə mundar ətin satılmasına son qoya bilərik. Düşünürəm ki, heyvanların identifikasiya məsələsi Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həll olunandan sonra bu da, yaxın beş ildə baş verə bilər. Demək olar, məsələ 80 faiz yığışacaqdır".

**Cəmilə Əzim**

# Naxçıvan Dövlət Universitetində "Mobil rabitə təlimi"keçirildi




**Azərbaycan mobil rabitə peşəkarlarının hazırlanması, telekommunikasiya sahəsi üzrə təhsil alan tələbələrin hazırlıqlı kadr kimi yetişməsi məqsədilə mobil operator "Nar" Naxçıvan şəhərində növbəti dəfə "Mobil rabitənin əsasları" təlimini keçirdi.**

Bu dəfəki təlim mobil standartların arxitekturası, şəbəkə avadanlıqlarının iş prinsipi kimi geniş mövzuları əhatə edirdi. Naxçıvan şəhərində ikinci dəfə keçirilən "Mobil rabitənin əsasları" təlimi Naxçıvan MR Rabitə və Yeni Texnologiyalar nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət universitetində keçirilib. Təlimdə universitetin müəllim və tələbələri ilə yanaşı, sözügedən nazirliyin əməkdaşları da iştirak ediblər. Telekommunikasiya və informasiya təhlükəsizliyinin artan strateji əhəmiyyətini nəzərə alaraq, bu sahədə yerli kadrların hazırlanması üçün "Nar" bu təlimləri davamlı olaraq həyata keçirir. Təlimin məzmunu mobil operatorun peşəkar texniki heyəti tərəfində təcrübi biliklər əsasında tərtib edilir və universitetlərin nəzəri biliklərinə əlavə kimi tədris olunur. Təlimdə iştirak edən tələbələr "Nar" tərəfindən sertifikatla təltif edir.

*Qeyd edək ki, bu günədək 300-dən çox tələbənin qatıldığı "Mobil rabitənin əsasları" təlimləri"Nar"ın təhsilə dəstək korporativ məsuliyyət strategiyası çərçivəsində təşkil edilir. Mobil operatorun digər sosial layihələri və KSM strategiyası haqqında daha ətraflı məlumatıburadan əldə edə bilərsiniz.*

**Elan**

Quliyev Oqtay Məmməd Rza oğluna məxsus avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

# Hər psixoloq intihara meyilli şəxslə işləyə bilməz



**Azad İsazadə:** "Valideyni sadəcə məlumatlandırmaq yox, tapşırıq verib, izah etmək lazımdır"

**Əfsanə Rüstəmova:** "Yeni nəsillə işləmək üçün onları və onların anlatım tərzini öyrənməliyik"





**Son illər Azərbaycanda uşaqlar arasında intihar hallarının artması müşahidə olunur. Ekspertlər bunu müxtəlif səbəblərlə əlaqələndirirlər. Psixoloqların fikrincə, ailələrin çoxunda uşaqların probleməlırinə yanaşma tərzi formalaşmayıb.**

Mətbuata müsahibə verən psixoloq Fərqanə Mehmanqızı da bu barədə təəccüb doğuran fakt ortaya qoyub: "Dedim, uşaq intihara meyillidir, valideyn aparıb uşağı döyüb ki, "niyə intihar etmək istəyirsən".

Bu hadisədən yola çıxaraq düşünürük ki, artıq SOS siqnalı çalmağın vaxtıdır.

Ömürlərinin çiçək vaxtında ölümün mahiyyətini başa düşməyən intihara meylli uşaqların valideynləri necə davranmalıdır?

**"Şərq"in sualını cavablandıran psixoloq Azad İsazadə deyib ki, valideynlə danışanda ehtiyatlanmalıyıq:**

"Uşaqda intihar meyllik yaranıbsa, səbəbin elə valideynin özü olmasını istisna etməməliyik. Valideynin uşağa münasibəti ilə intihar meyli yaranması mümkündür. Uşağın yaxınları, dostları, bacı-qardaşı da intihar fikrinin mənbəyi ola bilər. Psixoloq valideynlə yumşaq danışmalıdır. Dəməməsi isə mümkünsüzdür, onda məsuliyyət bizim boynumuza düşür. Valideyni sadəcə məlumatlandırmaq yox, tapşırıq verib, izah etmək lazımdır".

**Psixoloq Əfsanə Rüstəmovanın sözlərinə görə, intihara meyilli uşağın valideyni ilə söhbətin gedişatı əvvəlcədən təxmin edilməli idi:**

"Təxmin dediyim uzaqgörənlik mənasına gəlmir. Uşağın hadisələri anlatım şəklindən ailə vəziyyətinin tablosu çəkilə və məlumat ailəyə bu rəsmə baxaraq anladıla bilərdi.

Əlbəttə, hər işdə əskiklik yaşanır. Amma ixtisasımızdan qaynaqlı bizim işdəki əskiklərin nə ilə nəticələnə biləcəyini ehtimalını düşünmək qorxuludur. Ona görə diqqətli davranmaqda fayda var. Sözügedən hadisə yenidən daha əvvəllər üzərində dayandığımız bir məsələni gündəmə gətirir. İxtisaslaşmaq!

Hətta ixtisası psixoloq olsa belə, hər kəs intihara meyilli şəxslərlə işləyə, uşaq qəbulunu gerçəkləşdirə bilməz. Mütləq saydığımız alt başlıqlarda ixtisaslaşıb, sonra konsultasiya etmək lazımdır.

Əks halda nəticə narahatlıq doğurur. İnsanların həyatına birbaşa təmasdaykən hər kəs ekstra həssas davranmalıdır. Heç birimiz belə hadisədən sığortalanmamışıq. Bunun üçün daim mütaliə etməli və yeni nəsillə işləmək üçün onları və onların anlatım tərzini öyrənməliyik. Hər iki tərəfə keçmiş olsun".

**Aygün Tahir**

# Proqram nədirsə, müəllimlər onu icra edir

## Şagirdlərin dərs yükünün ağırlığında müəllimləri ittiham etmək doğru deyil

**Təhsil sahəsindəki əsas problemlərdən biri də dərs proqramının ağırlığı və şagirdlərin həddən çox ev tapşırığı ilə yüklənməsindir.**

Aparılan tədqiqatlar göstərir ki, ev tapşırıqlarının çoxluğu şagirdlərin növbəti mərhələlərdə təhsil nailiyyətlərinə müsbət təsir etmir. Əksinə, şagirdlərin həddindən artıq ev tapşırığı ilə yüklənməsi onları təhsildən, məktəbdən uzaqlaşdırır. Şagirdlərin dərs yükünün ağırlığı, onlara verilən ev tapşırıqlarının çoxluğu valideynləri də çox narahat edir. Valideynlər deyir ki, övladları dərsdən sonrakı vaxtlarının çox hissəsini ev tapşırıqlarının həllinə sərf edirlər. Nəticədə yorulur və asudə vaxt keçirə bilmirlər.



*"Pedaqoji prosesdən anlayışı olmayanlar bu mözuda məsləhət verib fikir irəli sürür"*

Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublunun sözlərinə görə, şagirdlərin dərs yükünün ağır olmasına səbəb Nazirliyin tədris proqramı yox, müəllimlərin "işgüzarlığıdır": "Əslində orta məktəblərdə tədris proqramı ağır deyil. Sadəcə, bir qrup müəllimlər var ki, onlar uşaqların akademik yüklənməsini daha yaxşı öyrənməsinə vasitə kimi baxırlar. Ona görə də uşaqlara həddindən artıq ev tapşırığı yükləyirlər. Hesab edirəm ki, həmin müəllimlərlə iş aparılmalıdır. 45 dəqiqə dərsi tam öyrənmək üçün kifayət qədər uyğundur. Şagird hətta oynaya-oynaya qəliz tapşırığı qavraya bilər. Müəllim metodikanı yaxşı quranda, tapşırıqları düz seçəndə uşaq çox rahat, sevə-sevə öyrənir. Uşaqların dərs yükünün optimallaşdırılmasını həyata keçirmək üçün bəzi müəllimlərlə işləməliyik".

V.Yaqublunun bu açıqlaması sosial şəbəkələrdə müsbət dəyərləndirilib. İctimaiyyət üzvlərinin fikrincə, müəllimlərin böyük faizi kurikulumun tələblərini yüksək səviyyədə mənimsəyə bilmədiyi üçün ənənəvi üsullardan istifadə edərək öz təlim üsullarını həyata keçirirlər. Ekspertlər isə hesab edir ki, bu məsələ sadəcə, müəllimlərdən və onun məsələyə yanaşmasından asılı deyil.

**Təhsil eksperti Elşən Ramizoğlu isə "Şərq"ə açıqlamasında deyib ki, pedaqoji fəaliyyəti olmayan insanlar üçün müəllimləri ittiham etmək asandır. Ona görə, Vəfa Yaqublunun bu açıqlamasının sadəcə söz xatirinə deyilən bir yanaşma olduğunu düşünürəm:** "Maraqlıdır, Vəfa xanım özü heç olmasa orta məktəbdə sinif rəhbəri işləyibmi?

Tədris prosesində müəllimləri şagirdləri əlavə yükləməkdə ittiham etmək düzgün deyil, proqram nədirsə, müəllimlər onu da icra edir. Proqram ağır olduğundan müəllimlərin onu icra etməyə belə zamanı çatmır, qaldı ki əlavə yükləmə olsun.

Pedaqoji prosesdən anlayışı olmayanlar bu mözuda məsləhət verib fikir irəli sürür. Şagirdlərin ağır proqramlı dərsliklərlə yüklənməsində müəllimlərin heç bir marağı və günahı yoxdur. Əgər Vəfa xanımın pedaqoji praktikası varsa, nümunə desin, biz də bilək. Sadəcə, nəzəri biliklərinə istinad edərək şagirdərin dərs yükünün ağırlığında müəllimləri ittiham etmək doğru deyil. Onsuz da müəllimlərin kağız-kuğuzdan vaxtı olmur ki, əlavə tapşırıqlarla uşaqları yükləsin".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1024



## ABŞ-da polis qaradərili gənci güllələdi

### Həmin anların görüntüləri ortaya çıxıb

**Amerika Birləşmiş Ştatlarında polis qaradərili yeniyetməni başından güllələyərək öldürüb.**

"Şərq" xəbər verir ki, aprelin 4-də polisin Patrik Lyoya adlı qaradərili gənci güllələyərək öldürdüyü anların görüntüləri ortaya çıxıb. Görüntülərdə polisin qaradərili gənci saxlayaraq avtomobilin nömrəsinin saxta olduğuna görə ondan vəsiqə istəməsi görünür. Gənc qaçmağa başlayandan sonra polis də onun arxasınca qaçır. Polisin 26 yaşlı Lyoyanı yerə yıxdıqdan sonra başından güllələdiyi görünür. Görüntülərin ortaya çıxmasından sonra Miçiqan ştatında kütləvi etirazlar baş verib. Adı açıqlanmayan və səlahiyyətləri alındıqdan sonra məzuniyyətə göndərilən polis əməkdaşı ilə bağlı araşdırmalara başlanılıb.

**Çimnaz**

## Dənizdə, su altında restoran

### Ən aşağı mərtəbəsində 40 nəfərlik yeməkxana var





**Norveç memarlarının layihəsi əsasında hazırlanan dənizdə, su altında yerləşən "Under" restoranı qeyri-adiliyi ilə fərqlənir.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, 495 kvadratmetrlik restoran həm də dəniz həyatı araşdırma mərkəzi kimi fəaliyyət göstərir.

Restoranın ən aşağı mərtəbəsində 40 nəfərlik yeməkxana var. Mürəkkəb işıqlandırma sisteminə malik restorandakı işıq binanın daxilində və xaricində müxtəlif şəraitə uyğun olaraq asanlıqla tənzimlənə bilər. Gecələr balıqları cəlb edən dənizin dibində süni işıq-







# Alimlər araşdırdı

## İnsanlar nədən ortalama 80 yaş yaşayır?

**İnsanların niyə orta hesabla 80 yaşa qədər ömür sürməsinin səbəblərini ingilis alimlər tədqiq edib.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Kembricdəki Vellcome Sanger İnstitutunda aparılan tədqiqat insanlarda genetik zədə sürətinin ömür payının açarı ola biləcəyi reallığını ortaya qoyur. Bu haqda "Nature" dərgisində məqalə yayımlanıb. Bildirilir ki, aşağı-yuxarı 80 yaş arası yaşayan insanlardan fərqli olaraq digər məməlilər daha az və ya daha uzun ömür sürür. İnsanların ömrü niyə əksər hallarda 80 yaşla məhdudlaşır? Tədqiqat burada genetik xətaların olmasını səbəb kimi göstərir. Məhz genetik xətalar insan ömrünün uzun və ya qısalığına təsir edir. Alimlər bu qənaətdədir ki, məməlilər fəsiləsinə aid olan kiçik heyvanlar enerjini daha sürətlə sərf edir, bunun üçün də hüceyrələrin yenilənməsi lazımdır. Bu da uzun ömürlülüyün açarıdır. 13 santimetr uzunluğundakı çılpaq köstəbək özündən dəfələrlə böyük ölçülü zürafə ilə eyni ömür yaşayır: 24-25 il. Buna səbəb heyvanların DNA-dakı mutasiya sayıdır. Çılpaq köstəbək siçanlar ildə 93, zürafələr isə 99 mutasiyaya uğrayır. İnsanlarda isə DNA mutasiyası ildə 47-dən yuxarı qalxmır. Tədqiqatçı yazar Dr.Alex Cagan bu tədqiqatla bağlı "bir siçan və bir pələng nə qədər bir-birilərinə zidd heyvanlar olsa da, ikisində də oxşar genetik dəyişiklik baş verir. Bunun müəyyənləşməsi insanı heyrətə salır. Amma ən maraqlısı, ömrün uzunluğunun somatik mutasiya faiziylə əlaqəli olduğunun bilinməsidir. Bu somatik mutasiyaya uğramaların insanların yaşlanmasına səbəb ola biləcəyi ehtimalını artırır". Tədqiqatçılar 16 məməli üzərində tədqiqat aparıb və bağırsaqlardan alınan kök hüceyrələrdəki genetik xətaları analiz edib. Nəticə bu olub ki, mutasiyaların əmələ gəlmə riski nə qədər yavaşdırsa, o canlının ömrü bir o qədər uzundur.

**Məlahət**





## Sosial şəbəkədən istifadə olmaz

### Şahzadə Uilyam uşaqlarına qadağan edib



**Şahzadə Uilyam və Keyt Middlton uşaqlarına sosial şəbəkələrdən istifadə etməyə icazə vermirlər.**

**Azərtac Böyük Britaniya mediasına istinadla xəbər verir ki, Kembric hersoqu və hersoginyası qərarlarını "varislərini imtiyazlarını nümayiş etdirməyən və cəmiyyətə layiqli insanlar" kimi yetişdirmək istədikləri ilə izah etdilər.**

**Oğlanları Corc və Luinin, qızları Şarlottanın insanlarla canlı ünsiyyət qura bilməsi Uilyam və Keyt üçün daha önəmlidir. Belə ki, ailə cütlüyünün uşaqları adi məktəbə gedirlər.**

## Mask tviteri 41 milyard dollara almaq istəyir



**Amerikalı milyarder İlon Mask Tviter şirkətini almaq istəyir.**

**Qafqazinfo xəbər verir ki, "SpaceX və "Tesla" şirkətlərinin sahibi Mask tviterin 100 faizini almaq üçün "ən yaxşı və son" təklifini etdiyini bildirib. O, hər bir səhm üçün 54,20 dollar təklif edib.**

**Sövdələşmənin ümumi məbləği 41,39 milyard dollara başa gələ bilər.**

## Ayı avtomobildən qaçdı



**ABŞ-ın Bankomba (Şimali Karolina, ABŞ) şəhərində yaşayan qadın əri ilə birlikdə səhər saatlarında itlərini gəzintiyə çıxararkən ev heyvanlarının özlərini narahat apardıqlarını hiss edib. Oxu.az xəbər verir ki, ətrafa göz gəzdirən cütlük axşam evlərindən bir qədər kənarda park etdikləri maşının ön şüşəsinin tamamilə sındırıldığını müşahidə ediblər.**

**Qonşulara müraciət edən qadın onlardan evlərində olan təhlükəsizlik kameralarına baxış keçirməyi xahiş edib.**

**Nəticədə məlum olub ki, ayı iki balası ilə bir neçə saat onların avtomobilində keçirib.**

**Öz növbələrində qonşular da gecə yarısı avtomobilin siqnal səslərini eşitdiklərini xatırlayıblar.**



## İflic olan qızını xəstəxanada öldürdü

### Bu olay daha bir qaranlıq keçmişi də işıqlandırdı

**Yunanıstanda 33 yaşlı qadın xəstəxanada müalicə alan azyaşlı qızını öldürdüyü şübhəsiylə həbs edilib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Yunanıstanın paytaxtı Afinada qorxunc hadisə yaşanıb.**

33 yaşlı Roula Pispirigu 9 yaşlı qızı Corcinanın həyatına son qoymaqda şübhəli bilinir. Ötən ilin aprelində iflic keçirən uşaq 8 aydır ki, xəstəxanada yatırdı. Ağrıları azalsın deyə uşağa kiçik dozada ketamin verilib. Növbəti dəfə uşağın vəziyyətini yoxlamağa gələn tibbi personal Corcinanın keçindiyini görüb. Halbuki, az əvvəl uşağın vəziyyəti normal olub. Ananın palatada uşaqla təkbaşına qalmasından şübhələnən həkimlər ölüm səbəbini müəyyənləşdirməyə başlayıb. Əzələ toxuması üzərindən aparılan analiz uşağa dozadan artıq ketamin verildiyini ortaya çıxarıb. Buna görə də anadan şübhələniblər. Çevik qüvvətlər polisi tərəfindən həbs edilən ana hakim qarşısına çıxarılıb, lakin tibbi personalın iddialarını rədd edib. Hakim isə məhkəmə istintaqının davam etdirilməsinə, istintaq müddətində ananın həbsxanada nəzarət altında qalmasına qərar verib. İstintaqın gedişində ailənin daha 2 azyaşlı övladının da müəmmalı ölümləri üzə çıxıb. 3 yaşlı Malena 2019-cu ildə qaraciyər çatışmazlığından, 6 aylıq İris isə 2021-ci ildə ürək çatışmazlığından şübhəli şəkildə vəfat edib. Ədliyyə pataloqu və Yunanıstandakı Ədliyyə Tibb Birliyi başqanı Qriqoris Leon digər körpələrin





cəsədlərinin məzardan çıxarılmasıyla ölüm səbəblərinin cinayət xarakterli olduğunun təsdiqləndiyini bildirib: "Burada bir cinayət işləndiyi ehtimalı böyükdür. Bunun təsdiqi üçün uşaqların ölüm səbəbləri yenidən tədqiq ediləcək. Bu, bizim ədaləti bərpa etməyimizin yeganə yoludur". Qeyd edilir ki, Corcina vəfat etdikdə ana "bu, qızının ən çox sevdiyi əşyasıydı", deyərək planşetin də məzarlığa gömülməsini istəyib. Lakin uşaqların atasının (həyat yoldaşları ayrılıblar) keçmiş həyat yoldaşının əleyhinə ifadə verməsindən sonra planşet də dəlil olaraq məzardan çıxarılıb və ona baxış keçirilib. Qızıyla son fotosunda ananın gülümsədiyi görünür. Tibb personalı da iddia edir ki, onlar uşağı müayinə edib palatadan çıxdıqdan 1 saat sonra ölüm hadisəsi baş verib. Böyük ehtimalla ana qızına artıq dozada ketamin verib, 20 dəqiqə sonra isə uşaq keçinib. Məhkəmə qadının digər 2 övladının ölümündə nə dərəcədə günahkar olduğunu da araşdırır.

**Məlahət**

## Vəsiyyəti ilə gündəmə gəlib

### Məşhur prodüser sərvətini sahibsiz itlərin saxlandığı sığınacaqlara bağışladı



**Dünyanın müxtəlif ölkələrinin televiziyalarında yayımlanan populyar musiqi və istedad yarışmaları layihələrinin prodüseri Simon Covell bu dəfə vəsiyyəti ilə gündəmə gəlib.**

Prodüser malik olduğu sərvətindən 20 milyon sterlinqin dünyanın bir neçə ölkəsində köpək sığınacaqlarına veriləcəyini açıqlayıb. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, prodüserin ötən il elan edilən sərvəti 600 milyon dollar təşkil edir. İngiltərə mətbuatı S.Covellin sərvətinin 20 milyon sterlinqini sahibsiz itlərin saxlandığı sığınacaqlara bağışlayacağını yazır. Sığınacaqlar arasında Londondakı iki sığınacaq və Barbadosdakı K9 adlı cəmiyyətlər də var. Məşhur prodüserin və sevgilisi Lauren Silvermanın evində 4 it bəslənir. Prodüserin vəsiyyətini belə erkən tərtib etməsinin səbəbi isə ötən il elektrikli velosiped sürərkən qəzaya uğramasıdır. Bu qəza nəticəsində S.Covel 6 saat əməliyyat keçirmişdi. Xatırladaq ki, S.Covel məşhur "The X Faktor", "Pop İdol", "America Got Talent", "Britain Got Talent" kimi realiti-şouların prodüseridir.

**Məlahət**

## Beyrut faciəsinin "yadigarı"

### Taxıl anbarının divarları söküləcək



**İki il əvvəl Beyrut limanında 215 nəfərin ölümü ilə nəticələnmiş partlayışın Livan xalqı üçün dəhşətli "yadigarı" olan taxıl anbarının divarları söküləcək.**

Azərtac rəsmi NNA agentliyinə istinadla xəbər verir ki, bu barədə Livanın informasiya naziri Ziad Makari məlumat verib. Onun sözlərinə görə, Livanın Nazirlər Kabinetinin iclasında bununla bağlı qərar qəbul edilib.

Livanlı nazir bildirib ki, mütəxəssislər bu divarların bərpasının baha başa gələcəyini söyləyiblər. Söküntü işlərinə faciə ilə bağlı istintaq komissiyasının yekun rəyindən sonra başlanacaq. Hündür divarların yerində isə faciə qurbanlarının xatirəsinə abidə ucaldılması nəzərdə tutulur. Eyni zamanda, Livanın taxıla olan tələbatını təmin etmək məqsədilə liman ərazisində yeni anbar da tikiləcək.

## Toy 4 yox, iki gün olacaq



**Evlənməyə hazırlaşan aktrisa Demet Özdemir və aktyor Oğuzhan Koç 4 gün toy edəcəkləri barədə yayılan xəbərə aydınlıq gətirib.**

Olay xəbər verir ki, ötən gün İstanbulda görüntülənən iki məşhur sima iddiaların doğru olmadığını qeyd edib:

"4 yox, iki gün olacaq. Dostlarımızla əylənərək bir gün keçirmək və hər kəs üçün vaxt ayıraraq böyük toy etmək istəyirik".